

# ÜMİDLƏR YENƏ AZƏRBAYCANADIR

2024-cü ilin dekabrında Rusiya qazının Ukrayna vasitəsi ilə Avropaya çatdırılmasına dair razılaşmanın müddəti başa çatır.

Rəsmi Bakı ilə problemin həlli üçün danışıqlar aparılır. Azərbaycan qazının Rusiyadan keçməklə Ukrayna üzərindən tranzit olaraq Qərbə daşınması ilə bağlı müraciət məhz Brüssel və Kiyevdən gəlib. Bu müraciətləri nəzərə alan Azərbaycanın ali rəhbərliyi Kiyev və Moskva arasında qaz məsələsində vasitəçilik etməyə razılıq verib.

Bu fakt bir daha Azərbaycan Prezidentinin diplomatik məharəti, ölkəmizin uzun illərdən bəri etibarlı tərəfdaş kimi qəbul edilməsinin göstəricisidir. Məhz məlum siyasət nəticəsində hazırda konfrontasiya halında olan üç tərəf arasında enerji böhranının həllində ən ideal seçimin Azərbaycan olduğu hamı tərəfindən qəbul edilir.

SƏHİFƏ 3-də

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

www.kaspi.az

14 SENTYABR ŞƏNBƏ 2024 № 35 (4186)

Qiyməti - 40 qəpik



## TIXACDAN QAÇMAĞIN YENİ VASİTƏSİ

Bakıda mikromobillik infrastrukturunun inkişaf etdirilməsi üçün həyata keçirilən layihə çərçivəsində 10 kilometrdən artıq velosiped yolu salınıb və şəbəkənin genişləndirilməsi nəzərdə tutulur.

SƏHİFƏ 7-də



## YERLİ BALIĞA HƏSRƏT QALMIŞIQ

Son günlər balıq bazarımızdakı qiymətləri İrandan və Türkiyədən gətirilən balıq məhsulları tənzimləyir. Çünki yerli balıq məhsulları bazarı tam ələ ala bilmir. Ötən il 81,442 min ton balıq məhsulları istehlak etmişik.

SƏHİFƏ 10-da



## "ATANIN UŞAQLA VAXT KEÇİRMƏSİ TƏKCƏ ANANIN İSTİRAHƏTİ ÜÇÜN DEYİL"

Azərbaycan Maarifçilər Assosiasiyasının sədri Tofiq Sadıxov: "Ananın qayğısı, sevgisinin yeri ayrıdır, amma tanrı məsləhət bilsəydi, uşağı dünyaya tək qadın gətirərdi. Bir yerdə gətirirlərsə, bir yerdə də böyütməlidirlər".

SƏHİFƏ 8-9-da





# BAKIDA "FORMULA 1" HƏYƏCANI

Bakı Şəhər Halqası ən çətin şəhər traslarından biri sayılır. Bu unikal tras həm sürətli düz yolları, həm də dar və kəskin döngələri ilə pilotların texniki bacarıqlarını və dözümlülüyünü sınayır.

### PAYTAXTIMIZDA 2017-Cİ İLDƏN BAŞLAYAN MACƏRA

**"Formula 1" Azərbaycan Qran-prisi ilk dəfə 2017-ci ildə Bakı Şəhər Halqasında təşkil olunub. Şəhər trasında baş tutan bu yarış mərkəzi küçələri əhatə edən, heyrətamiz mənzərələr və tarixi abidələr ətrafında olan döngələrlə sürət həvəskarlarının diqqətini çəkib.**

### HƏR KƏSİN DİQQƏT MƏRKƏZİNDƏ OLAN TƏDBİR

**"Formula 1" Azərbaycan Qran-prisinin ölkəmiz üçün maliyyə faydaları olduqca irihəcmlidir. İlk növbədə yarışı izləməyə çoxsaylı turist gəlir. Üstəlik onların sayı hər il artmaqda davam edir. Hər kəsin diqqət mərkəzində olan tədbir sosial-iqtisadi yüksəlişimizə təkan verir.**

SƏHİFƏ 16-da



## PAŞİNYANIN YARIMÇIQ SAZİŞ XÜLYASI

Ermənistan tam razılaşdırılmamış yekun sülhün imzalanmasını istəyir ki, özünü ən azı ərazi bütövlüyü, gücdən istifadə etməmə, müharibə gündəmi kimi məqamlardan sığortalamış olsun.

SƏHİFƏ 4-də



## İDXAL HESABINA ƏLDƏ EDİLƏN ARTIM

Çay istehsalımızda 16 faiz artım müşahidə olunur. Lakin bu artım yerli istehsal yox, idxal hesabınadır. Ekspertlər bildirirlər ki, bu sahədə fermerləri narahat edən problemlər həll edilsə, daha yaxşı nəticələr əldə etmək mümkündür.

SƏHİFƏ 6-da



## YENİ MÖVSÜMƏ YENİ SERİALLARLA

Telekanallar artıq yeni mövsümə start verirlər. Bu isə o deməkdir ki, yeni serial mövsümü başlayır. Serial həvəskarları yay aylarında sevdikləri qəhrəmanlar üçün darıxır və yeni mövsümü səbirsizliklə gözləyirlər.

SƏHİFƏ 15-də

## Avropada LGBT kabusu dolaşır



Avropa Parlamenti Avropa İttifaqını "LGBT-nin azad zonası" elan edib. Lakin buna müqavimət də var. Bəzi Avropa ölkələrində artıq mənəvi dəyərlərin itirilməsi təhlükəsini daha ciddi şəkildə gündəmə gətirirlər.

SƏHİFƏ 5-də

## Günə 100-dən çox ziyarətçi qəbul edən muzey



Dantenin Ev muzeyi şairin həyat və yaradıcılığı ilə tanış olmaq istəyənlər üçün müxtəlif sənədləri nümayiş etdirir. Ekspozisiya elə tərtib olunub ki, həm də onun mövcud olduğu və ilham aldığı tarixi-mədəni mühiti işıqlandırır.

SƏHİFƏ 14-də

# Kapital həcminə görə dünyanın 68-ci şirkəti

SOCAR-ın yaranmasından 32 il keçir. Hazırda şirkətin nəzdində iki neftayırma zavodu, bir neçə beynəlxalq neft-qaz boru kəməri və bir neçə mühəndislik şirkəti var.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) yaranmasından 32 il keçir. Oxu.Az-ın məlumatına görə, Azərbaycanın milli neft şirkəti olan SOCAR 13 sentyabr 1992-ci ildə Azərineft Dövlət Konserninin və "Azərneftkimya" İstehsalat Birliyinin bazasında yaradılıb.

Şirkətin yaradılmasında məqsəd Azərbaycan Respublikasının neft sərvətlərindən istifadəni vahid dövlət siyasəti əsasında həyata keçirmək, neft sənayesinin idarəetmə strukturunu təkmilləşdirmək, yanacaq-enerji kompleksinin inkişafını təmin etmək idi.

### İNTEQRASİYA OLUNMUŞ ŞİRKƏT

SOCAR neftin çıxarılması, daşınması, emalı və istehlakında ixtisaslaşan, inteqrasiya olunmuş şirkətdir.

Ayrı-ayrı vaxtlarda Azərbaycanda neft sənayesini özündə birləşdirən "Azərneft" birləşdirdiyi və idarə etdiyi müəssisələrin xüsusiyyətindən asılı olaraq İttifaq əhəmiyyətli trest və ya birlik kimi müxtəlif ittifaq və respublika təşkilatlarına (Azərbaycan SSR Xalq Komissarları Soveti, SSRİ Ali Xalq Təsərrüfatı Şurası, SSRİ Ağır Sənaye Nazirliyi, Azərbaycan SSR Xalq Təsərrüfatı Şurası) tabe olub və "Azərneftkomitə", "Azərneftkombinat" (sonralar "Azərneft", "Azərneftzavodlar" və "Azərneft-maşınqayırma" birliklərinə ayrılmış), "Azərneftçıxarma" Birliyi adlanıb.

Şirkətin nəzdində iki neftayırma zavodu, bir neçə beynəlxalq neft-qaz boru kəməri və bir neçə mühəndislik şirkəti var.

Hazırda SOCAR kapital həcminə görə dünyanın 68-ci ən böyük şirkətidir. Prezident İlham Əliyevin 2022-ci il 17 sentyabr tarixli Fərmanına əsasən, SOCAR çap mediası subyektinin təsisçisi ola bilən 10 dövlət orqanından biridir.

SOCAR respublikanın bütün ərazisində, o cümlədən quru və dəniz ərazilərində neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənməsi, neftin, qazın, qaz kondensatının hazırlanması, emalı və nəqli, həmçinin onlardan alınan məhsulların daxili və xarici bazarlarda satışı ilə məşğul olur. Şirkət həmçinin, böyük həcmdə elmi-tədqiqat və layihə işləri yerinə yetirir.

### NEFTLƏ ZƏNGİN 57 YATAQ

Hazırda Azərbaycanda neftlə zəngin 57 yataq mövcuddur ki, bunun 18-i Xəzər dənizinin Azərbaycan sektorunda, qalanı isə qurudadır. Ümumiyyətlə, Xəzər hövzəsi 30 milyard tona yaxın neft, 18-20 trilyon kubmetr həcmində qaz ehtiyatına malikdir ki, bu da dünyanın karbohidrogen resurslarının 15%-ni təşkil edir. Xəzər hövzəsinin Azərbaycana aid bölgəsində isə 3-5 milyard ton neft, 5 trilyon kubmetr həcmində qaz ehtiyatı mövcud-dur.



**Foto:** Tapdıq Abdullayev -Global Media Group



# "GULFSTREAM AEROSPACE" AZƏRBAYCANLA ƏMƏKDAŞLIQDA MARAQLIDIR

Prezident İlham Əliyev sentyabrın 13-də bir sıra görüşlər keçirib. Dövlət başçısı "Vista Equity Partners" şirkətinin təsisçisi və icraçı direktoru Robert Smiti, "Gulfstream Aerospace" şirkətinin prezidenti Mark Börnsü qəbul edib.

Prezident İlham Əliyev sentyabrın 13-də texnologiya sektorunda alternativ investisiyaların idarə edilməsi üzrə fəaliyyət göstərən ən nüfuzlu investisiya şirkətlərindən biri olan "Vista Equity Partners" şirkətinin təsisçisi və icraçı direktoru Robert Smiti qəbul edib.

### TƏRƏFDAŞLIĞIN İNKİŞAFI ÜÇÜN YAXŞI POTENSİAL VAR

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Azərbaycan Respublikası Dövlət Neft Fondunun dünyanın qabaqcıl maliyyə qurumlarından biri olan "Vista Equity Partners" şirkəti ilə uğurlu əməkdaşlığını müsbət qiymətləndirərək, tərəfdaşlığın inkişaf etdirilməsi üçün yaxşı potensialın mövcud olduğunu bildirib. Dövlət Neft Fondunun fəaliyyətinin daim genişləndiyini qeyd edən Azərbaycan Prezidenti Fondun aktivlərinin qeyri-sabit maliyyə bazarları mühitində də artdığını vurğulayıb.

Robert Smit Azərbaycanın investisiya potensialını yüksək qiymətləndirdiyini deyərək, ölkəmizlə əməkdaşlığın genişləndirilməsi üçün əlverişli imkanların olduğunu qeyd edib. Qonaq Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə uzunmüddətli və uğurlu əməkdaşlıqdan məmnunluğunu bildirərək, bu əməkdaşlığın rəhbərlik etdiyi şirkət üçün böyük önəm daşıdığını dedi və gələcəkdə mövcud münasibətlərin daha da möhkəmlənəcəyinə inamını ifadə edib.

### AKTİVLƏRİN TOPLAM DƏYƏRİ 100 MİLYARD ABŞ DOLLARIDIR

Qeyd edək ki, 2000-ci ildə ABŞ-də təsis olunmuş və mərkəzi ofisi Texas ştatının Ostin şəhərində yerləşən "Vista Equity Partners" şirkətinin, həmçinin Nyu-York, San-Fransisko, Çikaqo və Çin Xalq Respublikasının Honq-Konq şəhərində ofisləri mövcuddur. Şirkətin özəl səhmlər və özəl kredit fondlarında idarə etdiyi aktivlərin toplam dəyəri 100 milyard ABŞ dolları təşkil edir. "Vista Equity Partners" 24 illik tarixi ərzində 275 milyard dollar dəyərində 585-dən çox investisiya layihəsi həyata keçirib.



## İQTİSADİ İNKİŞAFIMIZIN YAXŞI NÜMUNƏSİ

Prezident İlham Əliyev sentyabrın 13-də həmçinin "Gulfstream Aerospace" şirkətinin prezidenti Mark Börnsü qəbul edib.

Mark Börns sonuncu dəfə ölkəmizdə 20 il əvvəl olduğunu deyərək, bu səfəri zamanı Bakıda gördüyü inkişaf proseslərinin onda dərin təəssürat hissi yaratdığını vurğulayıb. O, ölkəmizin iqtisadi inkişafını yaxından izlədiyini deyib və Azərbaycanda istismar olunan "Gulfstream" təyyarələrinin, həmçinin Bakıya gəldikdə hava limanında gördüyü təyyarələrin sayını iqtisadi inkişafımızın yaxşı nümunəsi kimi qiymətləndirib. Mark Börns Azərbaycan ilə gələcək əməkdaşlıqda maraqlı olduqlarını bildirib.

Formula 1 Azərbaycan Qran-Prisinin keçirilməsini qeyd edən qonaq bu yarışların Bakı trasının dünyanın ən maraqlı traslarından biri olduğunu deyib.

Söhbət zamanı Azərbaycanın iqtisadi potensialının və coğrafi mövqeyinin mülki aviasiyamızın gələcəkdə daha da inkişafı üçün əhəmiyyətli rol oynadığı vurğulanıb.

Görüşdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb.

ETİBARLI VƏ ETİMAD EDİLƏN TƏRƏFDAŞA EHTİYAC VAR

# ÜMİDLƏR YENƏ AZƏRBAYCANADIR




**2024-cü ilin dekabrında Rusiya qazının Ukrayna vasitəsi ilə Avropaya çatdırılmasına dair razılaşmanın müddəti başa çatır. Bu məsələdə razılığın əldə olunması üçün hər üç tərəfin üz tutduğu ünvan Azərbaycandır.**



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

İki ildən artıqdır davam edən Rusiya-Ukrayna müharibəsi Avropanın enerji təhlükəsizliyində ciddi problemlər yaradıb. Moskva ilə bütün sahələrdə əməkdaşlığı dayandırmağı hədəfləyən Qərb enerji asılılığını azaltmaq üçün alternativ mənbələrə üz tutur. Təbii ki, bu prosesdə Avropa üçün ən ideal seçimlərdən biri Azərbaycandır. Artıq Bakı 10 ölkəni mavi yanacaqla təmin edir. Onlardan yeddisi Avropa İttifaqının üzvüdür.

### AVROPANI TƏHDİD EDƏN ÇAĞIRIŞ

Bu günlərdə İtaliyaya işgüzar səfəri zamanı Beynəlxalq Çernobbio Forumunda "Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu" adlı sessiyada çıxış edən Prezident İlham Əliyev də bu məsələyə xüsusi vurğu edib. "Bu gün enerji təchizatı onu aydın şəkildə nümayiş etdirir ki, enerji təhlükəsizliyi milli təhlükəsizliyin ayrılmaz parçasıdır", - deyə Azərbaycan Prezidenti bildirib. İndi isə Qərb dövlətləri qarşısında enerji təhlükəsizliklərini təhdid edən yeni bir çağırış var. 2024-cü ilin dekabrında Rusiya qazının Ukrayna vasitəsi ilə Avropaya çatdırılmasına dair razılaşmanın müddəti başa çatır. Tərəflər bu məsələdə ortaq mövqeyə gələ bilmirlər. Əgər bu razılıq əldə olunmazsa, Avropanın dörd ölkəsində - Macarıstan, Slovakiya, Çexiya, Avstriyada - ciddi enerji problemi gözlənilir. Nəticədə tək Slovakiyanın büdcəsində 800 milyon avroluq bir defisit yaranması təhlükəsi var ki, bu, çox ciddi iqtisadi itkilər sayılır.

Qərb düşdüyü bu çətin vəziyyətdə nicat yolunu yenidən Azərbaycanda görür. Artıq Bakı ilə bu problemin həlli istiqamətində danışıqlar aparılır. Bu məsələdə bir neçə məqam xüsusilə vurğulanmalıdır. Azərbaycan qazının Rusiyadan keçməklə Ukrayna üzərindən tranzit olaraq Qərbə daşınması ilə bağlı müraciət məhz Brüssel və Kiyevdən gəlib. Bu müraciətləri nəzərə alan Azərbaycanın ali rəhbərliyi Kiyev və Moskva arasında qaz məsələsində vasitəçilik etməyə razılıq verib.

## BÜTÜN TƏRƏFLƏRİN ETİMAD ETDİYİ ÖLKƏ

Bu fakt bir daha Azərbaycan Prezidentinin diplomatik məharəti, rəsmi Bakının yürütdüyü siyasətin proqnozlaşdırılan, ardıcıl və peşəkar olması, həmçinin ölkəmizin uzun illərdən bəri etibarlı tərəfdaş kimi qəbul edilməsinin göstəricisidir. Məhz məlum siyasət nəticəsində hazırda konfrontasiya halında olan üç tərəf arasında enerji böhranının həllində ən ideal seçimin Azərbaycan olduğu hamı tərəfindən qəbul edilir. Azərbaycanın müharibə nəticəsində Ukraynaya humanitar yardımları, ərazi bütövlüyü və suverenliyinə davamlı siyasi dəstəyi və bu çətin anlarda enerji təhlükəsizliyinin təmininə verdiyi töhfələr rəsmi Kiyev tərəfindən Bakıya etimadın əsasını təşkil edir. Eyni zamanda, Azərbaycan Rusiya ilə münasibətlərini daim ən üst səviyyədə saxlayaraq Qərbin tətbiq etdiyi sanksiyalara qoşulmayıb. Bölgədə uzlaşdırıcı, qarşılıqlı hörmət və milli maraqlara əsaslanan praqmatik siyasətlə Moskva ilə münasibətlərin inkişafına daim diqqət yetirib. Bu səbəbdən, məlum danışıqlarda vasitəçilik rolunu peşəkar və tərəfsiz formada reallaşdıra biləcək yeganə dövlət Azərbaycandır.

### MÜƏYYƏN NİKBİNLİK VAR

Yeri gəlmişkən, Prezident İlham Əliyev Çernobbio forumunda çıxışında bu məsələyə diqqət çəkib. Onun sözlərinə görə, bir neçə aydır ki, ümumi məxrəcə gəlmək üçün böyük səylər göstərilir: "Məlumdur ki, bu tranzit dayanarsa, - bu isə dekabr ayına təsadüf edəcək, - bir neçə Avropa İttifaqı ölkəsi təbii qazın fiziki əlçatanlığı ilə bağlı ciddi çətinliklərlə üzləşəcək. Biz, sadəcə, həmin ölkələri və Ukraynanı dəstəkləmək istəyirik. Çünki qazın tranziti dayandığı halda Ukraynanın qazpaylayıcı sistemi tamamilə iflic olacaqdır. Bizdə müəyyən nikbinlik var. Çünki biz bu kontekstdə hər iki ölkə ilə təmasdayıq və görürük ki, ciddi irəliləyiş üçün zəmin var. Ancaq tərəfimdən təfərrüatların açıqlanması erkən olar. Burada uğura nail ola bilsək, zənnimcə biz bütün regionu viran edən bu müharibəyə son qoymaq üçün əlavə addımlar ata bilərik".


Prezident İlham Əliyev

## SON SÖZ YENƏ DƏ KİYEV VƏ MOSKVANIN OLACAQ

Azərbaycan Prezidentinin çıxışından da göründüyü kimi, nikbinlik var və bu, rəsmi Bakının qol qoyduğu bütün problemli məsələlərin müsbət sonluqla yekunlaşması üçün hədəflədiyi məqsədlərə, bütün vəzifələrə nail olduğunun göstəricisidir. Onu da qeyd etmək yerinə düşər ki, burada əsas alternativ mənbə qismində yenə Azərbaycan çıxış edir. Yəni, Bakının rolu tək vasitəçilik missiyası ilə yekunlaşmır, həm də bu təşəbbüsdə əsas söz sahibidir.

Məlum danışıqların hansı sonluqla yekunlaşacağı yaxın zamanlarda bilinəcək. Əgər Bakının enerji məsələsindəki vasitəçilik missiyası uğurlu nəticələr versə, bu, Kiyev və Moskva qarşısında yeni imkanlar pəncərəsinin açılması anlamına gəlir. Tərəflər etimad etdikləri və vasitəçilik missiyasını uğurla başa vuran bir ölkənin timsalında qanlı müharibəyə son qoymaq üçün yeni əlaqələndirici qazanmış olacaqlar. Prezident İlham Əliyevin "burada uğura nail ola bilsək, zənnimcə biz bütün regionu viran edən bu müharibəyə son qoymaq üçün əlavə addımlar ata bilərik" bəyanatını tərəflərə ilkin çağırış kimi də qiymətləndirə bilərik. Təbii ki, bu məsələdə son söz yenə də Kiyev və Moskvanın olacaq.

Lakin istər qaz tranziti ilə bağlı Bakıya edilən müraciətlər, vasitəçilik missiyası, istərsə də münaqişə tərəflərinin göstərdiyi etimad Azərbaycanın bu gün çox böyük beynəlxalq nüfuza və etibara sahib olduğunu göstərir. Bu, Azərbaycanın ali rəhbərliyinin liderlik keyfiyyətləri, diplomatik zəkası və praqmatik, milli maraqlara əsaslanan siyasətinin təzahürüdür.


Vladimir Putin
Volodimir Zelenski

# Paşinyanın yarımçıq SAZİŞ XÜLYASI

Ermənistan tam razılaşdırılmamış yekun sülhün imzalanmasını istəyir ki, özünü ən azı ərazi bütövlüyü, gücdən istifadə etməmə, müharibə gündəmi kimi məqamlardan sığortalamış olsun. Bu tələskənlik baş nazir Nikol Paşinyanın çıxışlarında da aydın hiss edilir.



RÜSTƏM QARAXANLI

Nikol Paşinyanın "İrəvan dialoqu" beynəlxalq konfransındakı çıxışı onun özünü dünyaya "sülh göyərçini" qismində uğursuz təqdimatı cəhdidir. Erməni məntiqi xüsusilə mübahisəli anlarda tam fərqli qaydalarla işləyən mexanizmdir. Bununla belə, indi nə ötən əsrin 80-90-cı illəridir ki, Paşinyanın "arqument"lərinə inanan olsun, nə də Ermənistanın yekun sülh sazişini uzatması üçün əlahiddə lüksu var. Azərbaycan öz torpaqlarını güc yolu ilə geri qaytarıb, döyüş meydanından qalib çıxıb və elə həmin Paşinyana da kapitulyasiya aktı imzalatdırıb. Məğlub tərəfin danışıqlar masasında nə isə diktə etmək arzusu, yaxud bunu imitasiya cəhdi sadəcə vaxt itkisidir. Vaxt isə bir yerdə dayanmır.

Bu gün onu itirən Ermənistan və erməni xalqıdır.

## TƏLƏSƏN DƏHLİZƏ DÜŞƏR

2020-ci ilin 10 noyabr bəyanatının öhdəliklərindən boyun qaçırmağa cəhd edən Paşinyan ölkəsini fövqəlgüclərin döyüş meydanına, tapdaq yerinə çevirib. Əgər indiyədək Ermənistan Moskvanın total nəzarətində idisə, indi burada "bulanıq suda balıq tutmaq" istəyən İran da var, bölgəni tərk etmək istəməyən Rusiya da, hər ikisini Ermənistandan sıxışdırıb çıxarmaq istəyən kollektiv Qərb də. Zəngəzur dalanında ilişib qalmış Paşinyan anlamağa başlayıb ki, fərqli sponsorların bir-birilərinə zidd sifarişləri də olur. Əgər İran Zəngəzuru "qırmızı xətt"i hesab edirsə, Qərb dəhlizin Şərqlə ticarət üçün qlobal əhəmiyyətini anlamağa başlayıb, ancaq onun Rusiyanın nəzarətində olmamasını istəyir. Rusiya ilə Azərbaycan 10 noyabr bəyanatının 9-cu bəndində əks olunmuş Zəngəzur dəhlizinə dair öhdəliyin yerinə yetirilməsini tələb edirlər. Türkiyə də Azərbaycanın sözünü deyir. Belə bir düyün ya açılmalıdır, ya da alternativ çözülmə üsulları işə düşməlidir.

Məhz bu prizmadan Ermənistan tam razılaşdırılmamış yekun sülhün imzalanmasını istəyir ki, özünü ən azı ərazi bütövlüyü, gücdən istifadə etməmə, müharibə gündəmi kimi məqamlardan sığortalamış olsun. Bu tələskənlik Paşinyanın çıxışında aydın büruzə verilir: "Ya biz özümüz təhlükəsizliyimizin təminatçısıyıq, ya da başqa qarant yoxdur. Çünki biz kimi qarant sayırıq, onlar üçün sadəcə xırda pul rolunu oynayırıq. Biz özümüz öz məsələlərimizi həll etməliyik". Siyasi dildən tərcümədə Ermənistanın baş naziri bunları demək istəyir: "Papağımızı qarşımıza qoyub düşünməliyik".





## ANALOQU OLMAYAN "MÜQAYİSƏ"

"İrəvan dialoqu"nda çıxış edən Paşinyan bildirib ki, Azərbaycanla gündəmdə olan sülh müqaviləsi 16 bənddən ibarətdir və bunun 13 bəndi tam razılaşdırılıb. Odur ki, o, Azərbaycan tərəfinə yaxın müddətdə bu 13 bəndin məcmusu olan hansısa sazişi imzalamağı təklif edir ki, sonra yerdə qalan üç məqamın üzərində iş davam etsin. Paşinyanın konfrans iştirakçılarına xitabən söylədiklərinə görə, dünya tarixində hələ bir müqavilə olmayıb ki, bütün spektr problemləri əhatə etmiş olsun.

Siyasi naşılığı ilə erməni hiyləgərliyinin miksini "sülh gündəmi" ilə ört-basdır etmək istəyən Paşinyanın ürkək "arqument"lərini alt-üst etmək elə də mürəkkəb iş deyil. Tarix boyu minlərlə postmüharibə sazişləri bağlanıb ki, İrəvanın təklif etdiyi 13+3 bəndlik müqavilə layihəsindən daha konkret olub. Sazişlərin özəlliyi də ondadır ki, konkret və lakonik olmaqla yanaşı, müqayisəli məqamların bütün spektrini əhatə etsin. Çox da uzağa getməyərək 10 noyabr bəyanatını götürək. Sənəddə əks olunan 9 bənd müharibə sonucunun yaratdığı yeni reallığı tam əks etdirmirdimi? Son illər ərzində üzərində ciddi iş gedən və hazırkı 13+3 formatı ilə gündəmdə olan təklif həmin doqquz bəndlik bəyanatın tələblərindən irəli gəlmirmi? Dörd il öncə məğlub tərəf olaraq imza atdığın sənədin tələblərindən boyun qaçırdığın halda hansı yeni saziş barədə danışa bilərsən? İmza atdığın bəyanatın bəndlərini yerinə yetirmirsənsə, yaxud zorla icra etməli olursansa, kim təminat verə bilər ki, yerdə qalan o üç problemin həlli istiqamətində işləri davam etdirəcəksən?

## RAZILAŞDIRILAN 13 MADDƏ MƏLUMDUR, BƏS ÜÇÜ?



Paşinyan çıxışında 13 bəndi razılaşdırdıqlarını, qalan üçünün üzərində isə sülh sazişi imzalanandan sonra işin aparıla biləcəyini desə də, fikir ayrılığı olan məqamların nədən ibarət olduğuna toxunmur. Halbuki sadə məntiq onların ən azı ikisinin Zəngəzur dəhlizi və konstitusiya dəyişikliyi məsələlərini ehtiva etdiyini deyir.

Zənəgəzur dəhlizinin açılması 10 noyabr bəyanatında olan 9-cu bənddə əks olunub ki, Ermənistan son dörd ildir onun icrasından boyun qaçırır. İndi isə Paşinyan bizə təklif edir ki, gəlin dörd il icra etmədiyim öhdəliyimi saxlayaq yekun sülh sazişinin imzalanmasından sonraya. Ola bilsin ki, Paşinyan özünün erməni məntiqi ilə dediklərinə özü inanmış olsun. Ancaq misal gətirdiyi dünya tarixində elə bir hal da olmayıb ki, qalib tərəf məğlub etdiyinin nazı ilə hazırlanmış sülh müqaviləsinə imza atsın.

Razılaşdırılmamış üç məsələdən ikincisi isə güman ki, Ermənistan konstitusiyası ilə bağlıdır. Ana qanunun müstəqillik bəyannaməsi hissəsində Azərbaycana qarşı ərazi iddiaları qalmaqdadır. Ermənistanın siyasi landşaftında, xüsusilə də müxalifət düşərgəsində "Artsaxı geri qaytarmaq" xülyası ilə yaşayan onminlərlə revanşist var. Sabah onların hakimiyyətə gələcəkləri təqdirdə, yaxud parlamentdə müəyyən səslər qazanıb hökumət koalisiyasında təmsil olunduqları halda "konstitusion tələb"lə çıxış etməyəcəklərinə təminatı kim verəcək?

Ermənistan hökuməti başda Paşinyan olmaqla anlamalıdır ki, sazişin tam həcmdə, bütün problemləri əks etdirən redaktədə imzalanması ilk növbədə onların özləri üçün vacibdir.

# AVROPADA LGBT KABUSU DOLAŞIR

Avropa Parlamenti Avropa İttifaqını "LGBT-nin azad zonası" elan edib. Lakin buna müqavimət də var. Bəzi Avropa ölkələrində artıq mənəvi dəyərlərin itirilməsi təhlükəsini daha ciddi şəkildə gündəmə gətirirlər. Qərb nəşrlərində ara-sıra "dəhşətli LGBT təhlükəsi"ndən bəhs edirlər.





AZƏR NURİYEV

Bu gün Avropanın ən ciddi problemi, özlərinin iddia etdiyi kimi, miqrasiya deyil, mənəvi dəyərlərin itirilməsidir. "Qoca qitə"də bu tendensiya getdikcə güclənir. Avropalılar qeyri-müəyyənlik içərisindədirlər, yürüdülən dövlət siyasətinə etibar etmirlər və çaşqın vəziyyətə salınıblar. İnsan azadlığı adı altında bəşəriyyəti qeyri-müəyyən bir yola sürükləməyə çalışılır, hətta dövlətlərə təzyiq belə göstərilir. Gürcüstanda baş verənlər də bunu təsdiq edir. Bu ölkədə gey-parad keçirilməsinin qarşısı mühafizəkar aktivistlər, keşişlər tərəfindən dəfələrlə alınıb. Ölkədə LGBT təbliğatını qadağan edən qanun layihələri qəbul olunub. Yeni qanun layihəsinə əsasən, eynicinslilərin nikahı, cinsiyyətinin dəyişdirilməsi üçün tibbi prosedurlar, uşaqların qeyri-heteroseksual şəxslər tərəfindən övladlığa götürülməsi, LGBT-nin təhsil müəssisələrində və mediada təbliği qadağan olunur. Amma Avropa bunu qəbul etmək istəmir. Avropa İttifaqı (Aİ) digər ölkələrə Avropa ailəsinin bir üzvü olacağı vədi verir, bunun əvəzində LGBT və sair məsələlərdə sərbəstlik istəyir. Ailə dəyərlərinin itirilməsinə çalışılır və bu, az qala əsas ideoloji xəttə çevrilir.

### SAYLARI SON YEDDİ İLDƏ BEŞ DƏFƏ ARTIB

Lakin buna müqavimət də var. Avropa ölkələrinin radikal kəsimi artıq mənəvi dəyərlərin itirilməsi təhlükəsini daha ciddi şəkildə gündəmə gətirir. Qərb nəşrlərində ara-sıra "dəhşətli LGBT təhlükəsi"ndən bəhs edirlər. Avropa Parlamentinin LGBT Hüquqları Müdafiəçiləri Platformasının dərc etdiyi sənədlərdə bildirilir ki, son yeddi ildə Avropada LGBT icmasına mənsub olduqlarını bildirənlərin sayı beş dəfə artıb. Avropa bu "dəyərləri"ni bütün dünyaya ixrac etmək və öz daxilində ciddi demoqrafik problemlərə gətirib çıxaran bu tendensiyanı bütün dünyada izləmək arzusundadır. Elə Aİ-nin Gürcüstandan sədaqət tələb etdiyi dəyərlərdən biri də LGBT haqlarında və təbliğatında sərbəstlikdir.

Təhlükə o həddə çatıb ki, hazırda Aİ-də siyasi, hüquqi və mədəni baxımdan LGBT hegemonluğu ən yüksək səviyyədə təbliğ olunur. Fransada keçirilən Yay Olimpiya Oyunlarının açılış mərasimində yaşananlar bu mənada pik idi.

### AVROPA LGBT-YƏ MEYDAN VERİR

Avropa Parlamenti bir müddət əvvəl Aİ-ni "LGBT-nin azad zonası" elan edib. Hələ 2020-ci il martın 11-də Avropa Parlamenti cinsi azlıqların nümayəndələrinin hüquqlarının son vaxtlar getdikcə daha çox diskriminasiyaya məruz qaldığı ölkələrin siyahısını hazırlamışdı. Həmin hesabatda Polşa və Macarıstan ciddi şəkildə qınanılıb. Fransanın LGBT sevgisi isə pik həddədir. Parisdə LGBT icmasının nümayəndələrinə dəstək olaraq hökumət onların "bayrağını" piyada keçidlərində təsvir etmək qərarına gəlib. Parisin ən işlək küçələrindən birindəki piyada keçidinin hər iki tərəfində LGBT rənglərinin əks olunduğu foto sosial şəbəkələrdə yayılıb.

İspaniyada da 50-dən çox işçisi olan şirkətlərdən LGBT tərəfdarlarını işə götürmək tələb olunur. Bu ilin birinci rübündə İspaniyada homofob hücumlarla bağlı xəbərlər kəskin artıb. Son hadisələrdən biri Barselonada Sant Joan bayramı zamanı çimərlikdə öpüşən iki gəncə beş nəfərlik bir qrupun hücumu olub.

Estoniya isə eynicinsli nikahları qanuniləşdirən ilk Baltikyanı ölkədir. Bu ölkəni postsovet məkanında LGBT hüquqları baxımından ən "mütərəqqi ölkə" adlandırmaq olar.



## QƏRB LİDERLƏRİ AVROPA PARLAMENTİNƏ QARŞI

Artıq bəzi Qərb ölkələrinin liderləri bu təhlükəyə qarşı əməli addımlar atmağa başlayıblar. İsveçrədə dövlət eyni səbəblərə görə insanları valideynlik hüquqlarından məhrum edir, Bolqarıstan prezidenti Rumen Radev bu yaxınlarda "Məktəbəqədər və məktəb təhsili haqqında" qanuna məktəblərdə "qeyri-ənənəvi cinsi oriyentasiyanın təbliğatını" qadağan edən dəyişiklikləri imzalayıb. Slovakiya təhsil naziri Aİ-nin etirazına baxmayaraq, məktəblərdə "gey təbliğatı"na qadağa qoyulması tələbi ilə çıxış edib. İtaliyada son vaxtlar ifrat sağçıların hakimiyyətə gəlməsi eynicinsli valideynləri olan ailələr üçün artıq nəticələrini verir. Şimaldakı Padua şəhərinin prokuroru lezbiyan cütlüklərdən doğulan 33 uşağın doğum haqqında şəhadətnamələrini qanunsuz elan edib. Mart ayında hökumət bərabər nikahın hələ də qanuni olmadığı bir ölkədə eynicinsli valideynlərin uşaqlarının qeydiyyatını dayandırmağı bələdiyyələrə tapşırmışdı. Eynicinsli vətəndaş birlikləri 2016-cı ildə sol mərkəzçi hökumətin dövründə qanuniləşdirilib. Macarıstanda da qanunlara LGBT əleyhinə əlavələr edilib.

### ABŞ-DƏN BAŞLANAN LEQALLAŞDIRMA

Qeyd edək ki, dünyada eynicinsli nikahların leqallaşdırılması prosesi 2015-ci ilin 26 iyun tarixində ABŞ Konstitusiya Məhkəməsinin qərarı ilə başlanıb. Qərarda deyilir: "ABŞ-nin heç bir ştatı eyni cinslərin evlənməsini qadağan edə bilməz". Həmin vaxt prezident olan Barak Obama bunu "bərabərlik mübarizəsində böyük məsafə qət edildi", - deyə qiymətləndirib. Ardınca Obama Administrasiyasında dövlət katibi olan Con Kerri "məhkəmənin qərarı dünyanın bütün nöqtələrinə çatdırıldı. Ayrı-seçkiliyi qəbul edən heç bir qanun ədalətin qarşısına keçə bilməz", - deyə ABŞ-nin gələcək hədəfini elan edib. Bundan sonra 2011-ci ildə İstanbulda qəbul edilən və LGBT hüquqlarını təbliğ edən Konvensiyaya qoşulan ölkələrin sayı sürətlə artmağa başlayıb. Beləliklə, Avropada bir kabus dolaşmaqdadır - LGBT kabusu.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

BU İLİN YANVAR-APREL AYLARINDA AZƏRBAYCANDA ÇAY İSTEHSALI ARTIB, AMMA...

# İDXAL HESABINA ƏLDƏ EDİLƏN ARTIM

Çay istehsalımızda 16 faiz artım müşahidə olunur. Lakin bu artım yerli istehsal yox, idxal hesabınadır. Ekspertlər bildirirlər ki, bu sahədə fermerləri narahat edən problemlər həll edilsə, daha yaxşı nəticələr əldə etmək mümkündür.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az




Bu ilin yanvar-aprel aylarında Azərbaycanda 3 924,4 ton çay istehsal edilib. Bu barədə Dövlət Statistika Komitəsinin məlumatında deyilir. Ötən ilin eyni dövrünün göstəricisi ilə müqayisədə istehsal 542,8 ton və ya 16,1 faiz artıb. Ötən ilin yanvar-aprel aylarında 3 381,6 ton çay istehsal edilmişdi. Çay istehsalımızdakı artım müsbət tendensiyadır. Bəs bu sahədəki gələcək perspektivlərimiz necədir?

### "CƏMİ 1 000 TON ÇAY İSTEHSALIMIZ VAR"

Aqrar Tədqiqatlar Mərkəzinin direktoru Firdovsi Fikrətzadənin sözlərinə görə, artım emal sənayemiz ilə bağlıdır: "Rəqəmlərdə göstərilənlər idxalla gəlmiş məhsuldur. Çünki özümüzün ölkə üzrə cəmi 1 000 ton çay istehsalımız var. Statistikada qeyd olunanlar emal sənayesidir. Bu, yerli istehsalla bağlı deyil. Biz quru çayı idxal edirik. 14-15 min ton çay idxalımız var. Onun 3-4 min tonu ixrac olunur, qalanı isə tələbatımızı ödəmək üçündür".

### MƏHSULDARLIĞA MÜSBƏT TƏSİR GÖSTƏRDİ

Meyvəçilik və Çayçılıq Elmi Tədqiqat İnstitutunun Lənkəran Çay Filialının direktoru Fərman Abdullayev bildirdi ki, çay istehsalının artması bir neçə amillə bağlı ola bilər: "Bunlardan biri çay sahələrinin məhsula düşməsidir. Çünki yeni plantasiyalar salınıb, sahələr əkilib və hazırda onlar məhsul verməyə başlayıb. Məsələn, 4-5 il əvvəl salınan plantasiyalarda məhsul yavaş-yavaş inkişaf edir. Yeni əkin sahələri də dövriyyəyə buraxılır. İkinci səbəb isə may ayının yağmurlu keçməsidir. İntensiv yağışlar məhsuldarlığa müsbət təsir göstərdi. Bu, həmçinin məhsulun daha təbii, sağlam qalmasına kömək etdi. Çayın yetişməsi üçün nisbi rütubət çox önəmlidir. Nisbi rütubət nə qədər yüksək olarsa (75-80 arası), bu, çay üçün o qədər yaxşıdır".



Firdovsi Fikrətzadə

### "12 MİN MANAT SUBSİDİYA AYRILIB"

F.Abdullayevin fikrincə, çayçılığa qayğı hər gün daha da artır: "Dövlət artıq hər yeni əkilən bir hektar çay plantasiyası üçün 12 min manat subsidiya ayırıb. Bu, fermerlərdə sözügedən sahəyə maraq oyadır. Subsidiyanın ayrılması məhsuldarlığın artmasına, yeni plantasiyaların salınmasına müsbət təsir göstərəcək".

## BÖYÜK FABRİKLƏRİN YARATDIĞI ÇƏTİNLİK

Ekspert qeyd etdi ki, bu sahə üzrə perspektivdə istehsalı daha da artırmaq üçün müəyyən işlərin görülməsinə ehtiyac var: "Kiçik fermer təsərrüfatlarının bir assosiasiyada birləşməsi, özəl və ya dövlət dəstəyi ilə kiçik istehsal gücünə malik fabriklərin qurulmasına ehtiyac var. Elə fabriklər var ki, nə özü işləyir, nə də kənardan çay qəbul edir. Bizdə olan fabriklər sovet dövraündən qalmadır. Onlar iri fabriklərdir və kiçik fermer təsərrüfatları istədikləri vaxt çayı yığıb təhvil verə bilmirlər. Çünki fabriklər mövsümlə işləyir. Amma kiçik fabriklər olarsa, fermerlər növbəti yığımlarda 100 kiloqram çayı da emal edə bilərlər. Kiçik fermerlər böyük fabriklərlə müqavilə bağlayırlar. Qiymət də şirkətlər necə istəyirsə, o cür olur. Bir neçə kiçik fabrik var, amma onlar da şəxsidir, yalnız öz çaylarını istehsal edirlər".

## HƏR MƏHSUL EYNİ ANDA YETİŞMİR



Ekspertin sözlərinə görə, çayımızın keyfiyyətini aşağı salan bir çox məqamlar mövcuddur: "Böyük fabriklərlə işləyəndə ümumi yığımı gözləmək lazımdır. Çay elə bir məhsuldur ki, maksimum 10-20 gün müddətində istehsalı başa çatmalıdır. Yaşıl çay yığıldıqda gərək fabrikə verəsən, çünki qaldıqda xarab olur. Ümumi yığımı da gözlədikdə çay artıq keyfiyyətdən düşür. Bu, məhsuldarlığa mənfi təsir göstərir. Amma sutkalıq emal gücü 200-250 kiloqram olan kiçik fabriklər olsa, bu, çayçılığın inkişafına çox böyük təkan verəcək".

Direktor fermerlərin ödənişlə bağlı yaşadığı çətinliklərdən də bəhs etdi: "Kəndlilər məhsullarını xeyli ucuz satmalı olurlar. Fabriklər birinci növ çayın 1 kiloqramını 1,5 manata qəbul edirlər. Artıq növbəti yığımlarda qiymət 1 manat 30 qəpik olur. Mövcud alış qiyməti fermerlərə sərf etmir. Fermerin bir hektar çay plantasiyası varsa, bu məbləğlə illik tələbatını ödəyə bilmir. Sahibkar məhsulu öz hesabına nəqliyyat tutub fabrikə gətirəndə xərci daha da artır".

## YARARLI SAHƏLƏR ARTIQ ƏKİLMİR

F.Abdullayev bildirdi ki, Azərbaycanda keyfiyyətli çay var, amma şərait yoxdur: "Ölkəmizdə çox keyfiyyətli çaylar mövcuddur. Elə dağlıq ərazilərimiz var ki, orada yüksək keyfiyyətli dəmyə çayı yetişir. Gübrə də verilmir, suvarmağa da ehtiyac yoxdur. Təbiət özü yetişməsi üçün hər şəraiti yaradır. Amma həmin ərazilərdən məhsulun fabriklərə çatdırılması mövcud ödənişlə mümkün deyil. Üstəlik, işçilərin əməkhaqqını da üzərinə gəldikdə fermerə bir kiloqramdan heç 20 qəpik də qalmır. Amma sahələrin yaxınlığında kiçik fabrik olsa, daşınma xərcləri azalar. Yaxud, assosiasiyalar yaradılsa, fermerdən məhsulu daha yüksək qiymətə alsa, bu da sərf edər. Qeyd etdiyim problemlər səbəbindən artıq münbit sahələr əkilmir".

F.Abdullayevin fikrincə, çayçılığın inkişafı üçün dövlət proqramı hazırlanmalıdır: "Bu proqram çərçivəsində həm məhsulun daşınması, emal qiymətinin artırılması, həm kiçik fabriklərin tikilməsi işləri həyata keçirilməlidir. Bunlar qanuni şəkildə olmalıdır. Fabrikin yaradılması üçün fermerlərə güzəştli şərtlərlə imkanlar yaradılmalıdır. Hərənin özü üçün fabrik qurması həm korkoranə alınar, həm də baha başa gələr. Amma dövlət tərəfindən bir proqram işlənilsə, daha yaxşı effekt verər".



Fərman Abdullayev

BAKIDA VELOSİPEDLƏRİN PARKLANMASI ÜÇÜN 50-Ə YAXIN MƏNTƏQƏ YARADILIB

# TIXACDAN QAÇMAĞIN YENİ VASİTƏSİ




**Bakıda mikromobillik infrastrukturunun inkişaf etdirilməsi üçün həyata keçirilən layihə çərçivəsində 10 kilometrdən artıq velosiped yolu salınıb və şəbəkənin genişləndirilməsi nəzərdə tutulur. Avqust ayından etibarən Bakıda ilk velosiped icarəsi xidməti fəaliyyətə başlayıb.**



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Avqustda Bakıda ilk velosiped icarəsi xidməti fəaliyyətə başlayıb. İstifadəçilər aylıq kirayə sistemi və yaxud saat hesabı ilə bu nəqliyyat növünü icarəyə götürərək istifadə edə biləcəklər.

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən (AYNA) bildirilib ki, bu xidmət, istifadəçiləri tıxac və parkinq kimi qayğılardan azad edir. Həmçinin velosipedi icarəyə götürməyə, səyahət etməyə və istənilən parklanma yerinə qaytarmağa imkan verən sistem sakinlərə və turistlərə şəhərdə təhlükəsiz və davamlı səyahətlər etmək üçün əlverişli imkan yaradır.

### 50-Ə YAXIN PARKLANMA MƏNTƏQƏSİ

İnfrastruktura gəldikdə isə, AYNA-dan bildirilib ki, Bakı şəhərində mikromobillik vasitələrinin parklanması üçün yaradılan 50-yə yaxın məntəqədə müvafiq konstruksiyalar quraşdırılıb, velosipedlərin kirayə qaydası barədə məlumatları əks etdirən lövhələr yerləşdirilib: "Parklanma məntəqələri yaradılarkən onların metro stansiyalarına, avtobus dayanacaqlarına, təhsil müəssisələrinə və iri ticarət mərkəzlərinə yaxın olması nəzərə alınıb. Məlumat lövhələri üzərində QR-kodlar təsvir edilib. Mobil cihazlarda həmin QR-kodlar vasitəsilə proqram təminatına keçid edərək velosipedlərin aktiv və deaktiv olması prosesini yerinə yetirmək mümkündür. Tətbiq vasitəsilə ən yaxın parklanma yerlərini görmək də olar".

Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev də sosial şəbəkə hesabında qeyd edib ki, Bakıda mikromobillik infrastrukturunun inkişaf etdirilməsi üçün həyata keçirilən layihə çərçivəsində 10 kilometrdən artıq velosiped yolu salınıb və şəbəkənin genişləndirilməsi nəzərdə tutulur.

## VELOSİPEDƏ DƏ MARAQ EYNƏN AVTOMOBİL KİMİ ARTACAQ

Qlobal statistikaya əsasən, velosipedi nəqliyyat növü halına gətirmiş şəhərlərdə baş verən yol-nəqliyyat hadisələrinin sayı 24-30 faiz aralığında azalır. Məlumdur ki, 20-ci əsrin ikinci yarısı dünyada avtomobil dominantlığı hökm sürüb, şəhərlərin inkişafı kütləvi avtomobilləşməyə uyğunlaşmağa meyl edib. Müasir tendensiyalar isə bunun tam əksinədir.

Maraqlıdır, hazırda Bakı şəhərində velosipedə üstünlük verməyin perspektivi necədir? Ümumiyyətlə, Azərbaycanda da bu nəqliyyat vasitəsini əsas nəqliyyat növü kimi istifadə etmək mümkündürmü?

Nəqliyyat eksperti Rauf Ağamirzəyev "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, son 15 ildə Azərbaycanda nəqliyyat vasitələrindən daha çox avtomobillərə şərait yaradıldığından bu, avtomobilləşməni stimullaşdırdı: "Təbii ki, alternativ vasitələr və onun istifadəsi üçün şərait yarandıqca, bu maraq dəyişir. Velosipedə maraq da eynən avtomobil kimi artacaq. Səkkiz aydır ki, ilk velosiped zolağı çəkilib. Ən əsası, Bakıda velosiped zolaqlarının şəbəkəsi genişlənir. Bu şəbəkələşmə şəhərin digər ərazilərini də əhatə edəcək. Hazırda velo-dayanacaqlar, veloicarələr təşkil olunub. Bu tendensiya davam edəcək".



### ÖLKƏDƏ VELOSİPEDƏ TƏLƏBAT VAR

Mütəxəssis bildirir ki, hazırda ölkədə velosiped icarəsindən kifayət qədər istifadə edənlər var: "Bundan başqa, tətbiq istifadəyə verilməzdən öncə də şəxsi velosiped istifadəçiləri, daşınma xidmətləri var idi. Ölkədə velosipedə tələbat var. Bu tələbatı artırmaq, stimullaşdırmaq üçün velosipedin təbliği, ciddi maarifləndirmə işi aparılmalıdır".

## VELOSİPEDLƏRİN SÖKÜLMƏDƏN, RAHAT DAŞINMASI ÜÇÜN...


Rauf Ağamirzəyev

Gələcəkdə atılan addımlara gəldikdə isə, mütəxəssis bildirir ki, velosipedlərin daşınması üçün də uyğun infrastrukturun yaranmasına ehtiyac var: "Məsələn, bəzi ölkələrdə qatarlarda velosipedi sökmədən daşıma imkanları mövcuddur. Velosipedlərin sökülmədən, rahat daşınması üçün gələcəkdə həm şəhərətrafı, həm də regionlara səfərlərdə bu variantı nəzərdən keçirmək lazımdır. Bundan əlavə, şəhər yollarında velosiped zolağının şəbəkəsi artırılmalı, önündəki baryerlər aradan qaldırılmalıdır. Hansısa ərazidə müvəqqəti tikinti gedirsə, yaxud hər hansı tədbirlərdən dolayı çəkilən velozolağın önü kəsilirsə, mütləq alternativlər düşünülməli, hərəkət dayanmamalıdır. Bu, həm qanunda, həm də standartlarda öz əksini tapmalıdır".


Yasin Mustafayev

## NƏQLİYYAT SİSTEMİNDƏ PRİORİTET MƏSƏLƏ

Nəqliyyat eksperti Yasin Mustafayev deyir ki, nəqliyyat sahəsində son dövrdə atılan addımlar təqdirəlayiqdir: "İnkişaf etmiş ölkələrdə nəqliyyat sistemində prioritet məsələ fərdi nəqliyyat vasitələrindən, yəni avtomobillərdən imtina edib, velosiped, skuter və piyada gəzintilərinə üstünlük verməkdir. Bu, həm insanların sağlamlığı üçün önəmlidir, həm də tıxacların qarşısını alır. Bu baxımdan son dövrlər ölkəmizdə də atılan addımlar təqdirəlayiqdir. Velosiped zolaqlarının çəkilməsi, bu sahədə təşviqat işləri, həmçinin velosipedlərin kirayə verilməsi çox gözəl addımdır".

### İNSANLARIN HƏR YERƏ VELOSİPEDLƏ GEDƏ BİLMƏLƏRİ ÜÇÜN ŞƏRAİT YARADILMALIDIR

Mütəxəssisin sözlərinə görə, hər bir vətəndaşa çatdırmaq lazımdır ki, 1-3 kilometr məsafəyə qədər olan yolu ya piyada, ya da velosipedlə getməlidir: "Təbii ki, bu infrastruktur daha da genişləndirilməli, insanların hər yerə velosipedlə gedə bilmələri üçün şərait yaradılmalıdır. Mümkün qədər velosiped zolaqlarının sayını artırmaq, əlavə tədbirlər görmək lazımdır. Velosiped və skuterlərdən istifadə üçün şəhərimizin relyefi və iqlimi tam uyğundur. Velosiped sürmək şəhər nəqliyyatını rahatlaşdırmaq üçün əvəzolunmaz vasitədir. Tıxacların və parklanma problemlərinin azalması, ictimai nəqliyyatın yükünün yüngülləşməsi və enerji sərfiyyatının azalması kimi faydaları ilə şəhər həyatını daha keyfiyyətli edir. Sevindirici hal odur ki, bu sistem artıq bizdə də mövcuddur və inkişafı qaçılmazdır".

MÜSAHİBƏ Kaspi ÜÇ DİLİN QƏZETİ 14 SENTYABR ŞƏNBƏ 2024 9

TOFİQ SADIXOV: "AXŞAMLAR ÇAYXANADA OLAN ATA UŞAQLA BAĞLI MƏSULİYYƏTİ QADININ ÜZƏRİNƏ ATMIŞ OLUR"

# "ATANIN UŞAQLA VAXT KEÇİRMƏSİ TƏKCƏ ANANIN İSTİRAHƏTİ ÜÇÜN DEYİL"



SÖHBƏTLƏŞDİ
AYGÜN ASİMQIZI

"Ananın qayğısı, sevgisinin yeri ayrıdır, amma tanrı məsləhət bilsəydi, uşağı dünyaya tək qadın gətirərdi. Bir yerdə gətirirlərsə, bir yerdə də böyütməlidirlər"

"Uşaq ağlayanda, ata gözləyir ki, ana sakitləşdirəcək. Uşaq üstünə nə isə dağıtdı, yenə ananın dəyişdirməsini gözləyir. Uşaq üçün yemək hazırlanması, onunla parka gedib oynamaq... Bütün bunların qadın işi olduğu düşünülür. Valideyn iclasına əsasən analar gedir. Valideyn iclasına atalar da getməlidir, analar da. Tək ana gedirsə, bu, uşaqla bağlı bütün məsuliyyəti qadının üzərinə atmaqdır".

Bu sözləri "Kaspi"yə müsahibəsində Azərbaycan Maarifçilər Assosiasiyasının sədri və "Atalar Məktəbi Məsuliyyətli Atalığa Doğru" layihəsinin koordinatoru Tofiq Sadıxov bildirdi. BMT-nin Əhali Fondu (UNFPA) tərəfindən dördüncü ildir keçirilən layihə çərçivəsində müxtəlif atalarla ünsiyyətdə olan T.Sadıxovla elə bu sahədə hazırkı durumla bağlı söhbətləşdik.

**● Tofiq bəy, məsuliyyətli atanı digər atalarla müqayisə edərək başlayaq. Fərq nədədir?**

● Biz onu bioloji və məsuliyyətli ata deyə qruplaşdırırıq. Bioloji ata odur ki, övladı dünyaya gəlir, amma sonra onun böyüməsi, təhsili, tərbiyəsinə yetərincə diqqət ayıra bilmir və ya ayırmaq istəmir. Əsas atalıq öhdəliyini maddi köməklik göstərməkdə görür. Məsuliyyətli ata övladının hər bir addımında ana ilə birlikdə olur. Layihə çərçivəsində bizim müxtəlif suallarımız və qrup işlərimiz var. Suallardan biri odur ki, yaxşı, məsuliyyətli ata necə olur? Demək olar ki, bütün regionlarda ataların cavabı odur ki, yaxşı pul qazanmalı, övladımızın istədiyi hər şeyi almalıyıq. Tapşırığın ikinci hissəsində sual verilir ki, öz atanızla olan bir xatirənizi bölüşün. Danışırlar ki, atamla balıq tutmağa getmişdik, atam filan yeməyi bişirmişdi, biri dava edib gələndə atasının ona dəstəyini qeyd etdi. Yəni sonda məlum oldu ki, heç kəs atasının ona pul verməyi, yaxud ona bahalı nə isə almağından danışmır. Özləri o qərara gəlib çıxırlar ki, övladımızın yaddaşında onun üçün xərclədiyimiz pul yox, onlarla keçirdiyimiz zaman, yaşatdığımız hisslər qalacaq.



**"ATALARIN ƏKSƏRİYYƏTİ UŞAQLARI İLƏ PARKA GETMƏKDƏN NARAHATDIR"**

**● Ataların məsuliyyətli olmamasına işarə edən əsas məqamlar nələrdir?**

● Bütün ataların məsuliyyətsiz olduğunu demək olmaz. Boşanandan sonra belə, məsuliyyətli atalar var. Planlı yanaşırlar, uşağı diqqətsiz qoymurlar. Çox yaxşı nümunələr də var, amma bu, az hissədir. Ataların əksəriyyəti uşaqları ilə parka getməkdən narahatdır. Uşaq arabası ilə övladını gəzdirməkdən narahat olan atalar var. Auditoriyada sorğu keçirdik. Deyirlər ki, biz belə kişiyə lağ edə bilərik. Ağlınıza gələcək və gəlməyəcək qəribə stereotiplər olur.

**● Atanın məsuliyyətinin pul qazanmaq olduğunu düşünənlərin çoxluğunu vurğuladınız, ancaq ailəyə pul da lazımdır. Atalarda sual yaranacaq ki, işləməyək?**

● Atalar bizə deyirlər ki, pul qazanmasaq, uşaqla necə əyləncə təşkil edək? Proqram müddətində biz onlara göstəririk ki, adi kağızla da uşaqla maraqlı oyun qurmaq mümkündür. Gününü düzgün bölsən, pul da qazana bilərsən, uşağa da vaxtın qalar. Bir tapşırıqda ataya deyirik ki, gününü planlaşdır. Sonra deyirik ki, böləndən sonra o saatı ailənin xeyrinə necə dəyişə bilərsən? Birinci bölgüdə məlum olur ki, bir saat yeməyinə, üç saat dostları ilə əyləncəyə yazıb. Sonra başa düşür ki, üç saatdan bir saat kəsib uşağa ayırmaqla nəsə itirmir. Ata uşağa qulluq üzrə öhdəlik və məsuliyyətini dərk edib, uşağına vaxt ayıranda, ananın da yükü azalmış olur. Ana da əmək bazarına çıxış əldə edərək, ailə büdcəsinə töhfə vermək imkanı əldə edir.

**● Dostların məclisində hansısa kişinin bir saat tez qalxması xoş qarşılanmır. Məsuliyyətli olmayan atalar məsuliyyətli atalara mane olurlar?**

● Bu yaxınlarda çayxanaların cəmiyyəti necə korladığı haqqında yazı oxudum. Deyir ki, Avropada həftə içi işdən sonra hamı evdə, ailəsi ilədir. Həftə sonu publara gedirlər, dincəlirlər. Bizim hər gün toplum olaraq kişilərin gedəcəyi yer çayxanadır. Əvvəllər yaşlı kişilər gedirdi, indi cavan oğlanlar da gedirlər. İnsanlar bir yerdən sonra başa düşməlidirlər ki, bunun qarşısını almaq lazımdır. Axşamlar çayxanada olan ata uşaqla bağlı məsuliyyəti qadının üzərinə atmış olur.

**"YUXUSUZ GECƏLƏR TƏKCƏ ANALAR ÜÇÜN DEYİL"**

**● Məsuliyyətli olmayan ataların çox olduğunu dediniz. Səbəbi nədir?**

● Bizdə qızlar uşaq vaxtından gələcəyin anaları kimi böyüdülür. Hələ kiçik yaşlarından uşaq bələmək kuklaların üzərində öyrədilir. Zamanla yemək bişirmək, çay dəmləmək və sair məsələləri də öyrətməklə, ev və uşağa qulluq məsələlərini qadının üzərinə qoyub, onun təhsil və peşə inkişafı imkanlarını ciddi şəkildə məhdudlaşdırırıq. Oğlanlara isə ata olmaqla bağlı nələrsə deyilmir. Bir də baxır ki, kiminsə həyat yoldaşıdır, atadır. Subaylıqdakı kimi həyatını yaşayır, uşaqla bağlı məsuliyyəti üzərinə götürmür. Mən özüm də atalığı ilk uşaqda hiss etmirdim. İkincidə daha çox hiss etdim.

**● Ailə qurmamışdan öncə oğlanlar "mən məsuliyyətli ata ola bilərəm?" sualını özlərinə verməlidirlər?**

● Bu sualı özünə verənlər adətən gec evlənirlər (Gülür). Başa düşürlər ki, məsuliyyətləri var, özlərini hazır hiss edəndə "evlənmək vaxtıdır" qənaətinə gəlirlər. Ümumiyyətlə, bilməlisən ki, ailə bir layihədir. Ailə qurursansa, kommunal xərclərindən tutmuş gündəlik tələbatlara qədər bir məsuliyyətin yaranmış olur. Övlad olandan sonra ata nə etməlidir? Hazır olmalıdır ki, yuxusuz gecələr təkcə analar üçün deyil. Bəhanə odur ki, işdən yorğun gəlmişəm, yatmalıyam. Bu, doğru deyil. Dünya təcrübəsində ödənişli atalıq məzuniyyəti var. Bizdə də var, sadəcə ödənişsizdir. Ata pul almadan 14 gün məzuniyyət götürə bilir. Pulsuz olduğu üçün də atalar bunu istəmirlər. Digər tərəfdən, evdə oturub uşağa baxmaq da istəmirlər. 2-3 ildir bunun təbliğatı BMT-nin Əhali Fondu tərəfindən aparılır. Atalıq məzuniyyətinin ödənişli olmasını istəyirik ki, ataların uşaq dünyaya gələndən sonra iki həftə evdə olub ana ilə bir yerdə uşağa baxmaq üçün maddi cəhətdən narahatlıqları olmasın.

İslandiyada ailələr arasında aparılan tədqiqat göstərdi ki, atalıq məzuniyyətinin tətbiqi boşanma səviyyəsinə birbaşa təsir göstərib: bu göstərici beş ildən sonra 8,3%, 15 ildən sonra 3,4% azalıb. Kanadanın Kvebek şəhərində aparılmış bir tədqiqat da valideynlik məzuniyyətindən birgə istifadə edən cütlüklər arasında ayrılmanın 6% azaldığını təsdiq edib.



**● Atanın uşağa gecə baxması ananın istirahət etməsi üçündür?**

● Ananın istirahəti tərəfdən baxsaq, ortaya nənə-baba institutu daxil olur. Qızın anası gəlib uşağa baxır. Ata prosesdən kənarda qalır. Mütəxəssislər deyirlər ki, doğuşdan sonra ata günlərlə, aylarla uşağı qucağında saxlamalıdır. Uşaqla ata arasında bir bağ yaransın. Ana ilə uşağın bioloji bağlılığı var, çünki onun bətnindən gəlir. Amma atasını hiss etmir. Atanın uşaqla vaxt keçirməsi təkcə ananın istirahəti üçün deyil.

**"KİŞİ MƏTBƏXDƏ OLMAZ"**

**● Kişilər bu kimi məsələlərdə "yorulmuşam" deyib, nəsə etməyə bilirlər. Amma qadın çox yorulsa da, edir.**

● Geniş yayılmış stereotipə əsasən, qadın bu cəhətdən psixoloji olaraq daha səbirlidir. Lakin yuxarıda qeyd etdiyim kimi, əsrlər boyu qadın bu məsuliyyətin əsasən onun üzərində olmasına inanıb və bu cür də formalaşıb.

**● Bir hal ola bilərmi ki, bizim qadınlar uşaqla bağlı bütün məsuliyyəti öz üzərlərinə götürürlər, kişidə bu barədə düşünmək məcburiyyəti yaranmır?**

● Bu, xarakter məsələsidir. Ola bilər ki, ata xaraktercə məsuliyyətli deyil, uşağı anaya etibar edir. İkinci hal odur ki, ananın böyüdüyü mühitdə aldığı travmalar, öz ailəsində gördükləri kişini məsuliyyətdən uzaq saxlayır. Məsələn, atasını heç vaxt mətbəxdə görməyib. Atalar məsuliyyətli olmaq istəyirlər, uşaqla mətbəxdə nələrsə etmək istəyirlər. Bəzən qadınlar deyirlər ki, kişinin yeri mətbəx deyil. Onun beynindəki stereotip odur ki, kişi mətbəxdə olmaz.

**● "Ata həmişə işdə-gücdə idi, ana uşaqların üzərində işlədi, hamısı yüksək balla universitetə qəbul oldu". Bu kimi nümunələr də gətirilir.**

● Burada ölçü meyarlarımız səhvdir. Biz onsuz da yaxşı oxumağı 700 balla ölçürük, universitetə qəbul olmağı uğur hesab edirik. Digər tərəfdən baxsaq, o uşaq birtərəflidir. Ola bilər ana üzərinə düşdü, hazırlaşdı, yaxşı bal toplayıb universitetə də qəbul oldu, amma yenə də araşdırsan, ata ilə bağlı travmaları var. Bəzən deyirlər ki, uşaq atadan qorxmalı, çəkinməli, sevgini ana verməlidir, bu, bəsdir. Amma bizim seansda 45 yaşlı kişi dedi ki, atam bir dəfə də olsun məni sevdiyini demədi. Bunu eşitməyi çox istəyirmiş. Uşaq üçün mənəvi körpü çox önəmlidir.

> *"Bəzən deyirlər ki, uşaq atadan qorxmalı, çəkinməli, sevgini ana verməlidir, bu, bəsdir. Amma bizim seansda 45 yaşlı kişi dedi ki, atam bir dəfə də olsun məni sevdiyini demədi. Bunu eşitməyi çox istəyirmiş."*

Fotolar: Rüfət Mikayılov/ Global Media Group



**● Atanın məsuliyyətli olmaması uşaqların həyatına necə təsir edir?**

● Uşaqların ataya, kişiliyə qarşı fikirləri dəyişir. Qız övladlarında ailə qurmağa qarşı kompleks yaranır. Çünki düşünürlər ki, həyat yoldaşları ataları kimi ola bilər. Oğlanlarda pis rol modeli olur. Düşünür ki, atam belə olubsa, mən də elə ola bilərəm. Bizdə belə tapşırıq var, atanızda gördüyünüz, amma dəyişmək istədiyiniz nələr var? Bəziləri çox sərt təpki verir ki, yox, atam belə olub, dəyişmək istəmirəm. "Atam məni döyürdü, yaxşı edirdi, mən də döyərəm", - deyir, atasının etdiyi zorakılığa haqq qazandırır. Qızlar atadan sərtlik, kobudluq, qayğısızlıq görürlər. Qayğılı biri ilə qarşılaşanda, qəribə gəlir. Həyat yoldaşının aşırı qayğısından boşanan ailələr var. Çünki ailədə qayğıkeşlik görməyib.

**"ATANIN UŞAĞA DİQQƏTİ ONA ÖZGÜVƏN VERİR"**

**● Bəs məsuliyyətli ata uşaq üçün necə bir gələcək yaradır?**

● Uşaqlar daha çox ana ilə vaxt keçirirlər. Ananın qayğısı, sevgisinin yeri ayrıdır, amma tanrı məsləhət bilsəydi, uşağı dünyaya tək qadın gətirərdi. Bir yerdə gətirirlərsə, bir yerdə də böyütməlidirlər. Atanın uşağa diqqəti ona özgüvən verir. Uşaq potensialını üzə çıxarır. Ataya arxayın olur. Ata ilə daha çox şey danışmaq istəyir.

**● Qeyd etdiniz ki, atalar işləyib pul qazanmalı olduqlarını deyirlər. Günümüzün reallığını götürsək, məsuliyyətli ata olmaq həqiqətən çətindir?**

● Ümumiyyətlə, valideyn olmaq çətindir. Valideyn olmağı anlamaq lazımdır. Restoranlarda ailələri müşahidə edin. Masanın üstündə bütün nemətlər var, yeyib içirlər, amma üzləri gülmür. Çünki orta statistik Azərbaycan kişisinin düşüncəsinin istirahəti, ailəyə diqqəti pul xərcləməkdir. Harasa gəzintiyə aparsın, dincəlsinlər. Uşağın qarşısına naz-nemət qoymaqdan çox atası ilə vaxt keçirmək önəmlidir.

Uşaq birdən 15-16 yaşa çatmır. Günbəgün böyüyür, dəyişir. Sən arada hansısa günləri, ayları itirirsən, bir də görürsən ki, 16 yaşdadır və artıq aranızda doğru ünsiyyət yoxdur. Problem yaranır, deyirsən ki, uşaqlar korlanıb, sözümüzə baxmırlar.

**"BİZDƏ ANA UŞAĞI ATASINA VERİR Kİ, PARKA APAR"**

**● Məsuliyyətli ata gündə uşağa nə qədər vaxt ayırmalıdır?**

● Körpə vaxtı daha çox vaxt sərf etməlidir. Məktəb vaxtı dərsləri ilə maraqlana, əylənə bilərlər. Ən azı gün ərzində bir saat ünsiyyətdə olub söhbət etməlidirlər. Bizdə ana uşağı atasına verir ki, parka apar. Ata da aparır, özü telefonda, uşaq da orada özü üçün oynayır. Adı da odur ki, uşaqla vaxt keçirir. Bu, passiv vaxt keçirməkdir. Aktiv vaxt keçirmək odur ki, ata da uşaqla bir yerdə prosesdə olsun.

**● Subay xanımlarda sual yarana bilər: Məsuliyyətli atanı necə seçək?**

● Qızların gələcək həyat yoldaşlarını daha yaxşı tanıya bilmək imkanları olmalıdır. Öz həyatına, valideynlərinə, işinə, hər şeyə qarşı məsuliyyətsiz birindən məsuliyyətli atalıq gözləmək sadəlövhlük olardı.

# YERLİ BALIĞA HƏSRƏT QALMIŞIQ

Son günlər balıq bazarımızdakı qiymətləri İrandan və Türkiyədən gətirilən balıq məhsulları tənzimləyir. Çünki yerli balıq məhsulları bazarı tam ələ ala bilmir. Ötən il 81,442 min ton balıq məhsulları istehlak etmişik.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

2023-cü ildə Azərbaycan əhalisi adambaşına orta hesabla səkkiz kiloqram balıq və balıq məhsulları istehlak edib. Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb. Ötən il ölkədə ümumilikdə 81,442 min ton balıq və balıq məhsulları istehlak edilib. Hesabat dövründə Azərbaycanda 87,166 min ton balıq və balıq məhsulları ehtiyatı olub ki, bunun da 72 faizi və ya 62,722 min tonu istehsalın, 24,2 faizi və ya 21,081 min tonu idxalın, 3,8 faizi və ya 3,363 min tonu əvvəlki ildən qalıq hesabına formalaşıb.

Payız aylarının başlaması ilə Azərbaycanda balığa tələbat da artır. Bəs bu mövsüm balıq bazarında bizi nə gözləyir? Balıq məhsullarının qiymətləri necə dəyişəcək?

### İSTEHLAK STATİSTİKADAN BİR NEÇƏ DƏFƏ AŞAĞIDIR

"Azərbaycan Balıq İstehsalçıları və Emalçıları Assosiasiyası" İctimai Birliyinin sədri Zaur Salmanlının sözlərinə görə, təqdim olunan rəqəmlər reallığı tam əks etdirmir. Çünki istehlakımız daha aşağıdır: "Adambaşına səkkiz kiloqram balıq düşməsi çox böyük rəqəmdir. Amma təəssüflər olsun ki, reallığı tam olaraq əks etdirmir. Bu o deməkdir ki, 62 min tonun üzərində daxili istehsal var. Amma bu, hazırkı dövr üçün qeyri-mümkündür. Heç sovetlər dövründə istehsalımız bu həddə olmayıb. O səbəbdən indiki halda da mümkünsüzdür. Azərbaycanda istehlak göstərilən rəqəmlərdən bir neçə dəfə aşağıdır".

### DAXİLİ İSTEHSAL AZALIB

Z.Salmanlının fikrincə, bu il balıq bazarında bizi müsbət tendensiya gözləmir: "Yeganə nərə cinsli balıqların yetişdirilməsində kiçik inkişaf görülür. Amma bu da qiymətlərin kifayət qədər yüksək olması ilə bağlıdır. Digər bitki ilə qidalanan balıqların, çəkikimilərin istehsalında son 5-6 ildir mütəmadi olaraq azalma müşahidə edilir. Soyuq su balıqlarından forellərin də istehsalında azalma mövcuddur. Hətta minimum həddə düşüb, deyə bilərik. Bu isə balıqçılıqla bağlı nəzarətedici, tənzimləyici orqanın, qurumun olmaması, həmçinin balıq və balıq məhsullarının kənd təsərrüfatı məhsulları sırasına daxil edilməməsi ilə əlaqədardır".





## "DÖVLƏTDƏN DƏSTƏK ALMALIYIQ"

Sədr balıqçılığın inkişafı üçün etməli olduqlarımıza da toxundu: "Hazırda balıqçılıq sahəsində vəziyyət ürəkaçan deyil. Qərar verilib ki, 2025-ci ildən balıqçılıq kənd təsərrüfatı sahəsi hesab olunacaq. Amma bunun üçün keçəcəyimiz uzun bir yol var. Balıqçılığı inkişaf etdirmək istəyiriksə, dövlətdən dəstək almalıyıq. Əks halda, qonşu ölkələrdən geridə qalacağıq. İstehlakın artması üçün istehsal da artmalıdır. Amma bu istiqamətdə müsbət nəticələri ən tez iki ildən sonra görə bilərik".

Qiymətlərə gəldikdə isə, burada elə böyük dəyişiklik yoxdur: "Qiymətlər nərə cinsli balıqlarda, çəkikimilərdə, forel balıqlarında stabildir. Bunun da səbəbi qonşu ölkələrdən balıq idxal edilməsi ilə bağlıdır. İrandan, Rusiyadan, Çindən kütləvi şəkildə məhsulların idxal olunması bazardakı tələbatı ödəməyə kifayət edir".



Zaur Salmanlı

Əfqan Əliyev

### BALIQÇILIQ OKTYABR AYINDAN CANLANIR

Balıqçılar İttifaqının sədri Əfqan Əliyev isə dedi ki, yayda balıq daha az istehlak edildiyi üçün bazarlarda məhsullarda azalma müşahidə olunur: "Azərbaycanda bazarlara balıq əsasən oktyabr ayından sonra çıxarılır. Sentyabrdan sənaye balıqçılığına icazə verilir. Xəzər dənizində mayın 1-ə qədər, kiçik su hövzələrində isə aprelin 1-ə qədər balıq ovlanmasına icazə var. O səbəbdən həmin dövrlərdə balıq bol olur. Amma ümumi balıqçılıq oktyabr ayından canlanır. Sentyabrda bir az daha zəif olur. Bunun da səbəblərindən biri insanlarımızın balıqla bağlı fikirləridir. Elə təfəkkür var ki, isti aylarda balıq yemək olmaz. Sentyabrda da havalar hələ tam soyumadığı üçün insanlar balığı oktyabr ayından almağa başlayırlar. Qış aylarında balıq daha çox istehlak edilir".

## YERLİ BALIQ BAZARLARA AZ ÇIXARILIR

Ə.Əliyevin sözlərinə görə, bazarımızdakı balıqların əksəriyyəti idxal olunur: "Yayda azalma olduğu üçün qiymət bir az yüksəlir. Yay və yaz aylarında idxal artır. Soyuq dövrdə artıq yerli balıq bazara daxil olduğundan qiymətlərdə də nisbətən ucuzlaşma müşahidə edilir. Amma yerli balıq bazarlara az çıxarılır. Son günlər balıq bazarımızdakı qiymətləri İrandan və Türkiyədən gətirilən balıq məhsulları tənzimləyir. Çünki yerli balıq məhsulları bazarı tam ələ ala bilmir. Azərbaycana 70 faiz balıq idxal olunur".

### NƏZARƏTSİZLİK ÖZÜNÜ QİYMƏTLƏRDƏ GÖSTƏRİR

Sədrin qənaətincə, Azərbaycanda balıq hazırda ət qiymətinədir. Amma bu sahəni elə inkişaf etdirmək olar ki, qiymətlər 3-5 manata qədər enər: "Məsələn, əvvəllər nərə balığının kiloqramı 100 manatı keçmişdi. Bu ildən nərəkimilərin qiymətləri xeyli ucuzlaşıb. Hazırda kiloqramı 20-40 manat civarındadır. Bölgə balığı əvvəl 80 manat idi, indi isə 50-60 manatdır. İranda əvvəllər balıq bizdən qat-qat baha idi. İndi dörd dəfə ucuzdur. Bizdə 12 manata satılan İran foreli, öz bazarlarında dörd manatdır. Göl balığı satanlar deyir ki, bizdən 4-5 manata alırlar. Amma bazara 8-10 manata gəlib çıxır. Bunun da səbəbi odur ki, nəzarət yoxdur".

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
Təsisçi
Global Media Group
Baş redaktor
İlham Quliyev
Redaksiya
Baş redaktorun müavini - Azad Əliyev
Müxbirlər – Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı
Müəlliflər – Azər Nuriyev, Xanım Aydın, Sevinc Abbasova, Faiq Tahirov
Korrektor – Vüsal Əliyev
Texniki şöbə
Kreativ direktor – Murad Arbay
Dizaynerlər
Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli
Yayım və satış meneceri
Vadim Manafov
Ünvan
Bakı, Səməd Vurğun 34, AF Mall
Telefon: (012) 525 03 31
kaspiqazeti@kaspi.az
Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 2108
Tiraj: 2350
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# “MANATLIQ” TAKSİLƏRSİZ MƏNZİL BAŞINA NECƏ ÇATAQ?

Bakıdan üzü Sumqayıt istiqamətində fəaliyyət göstərən “manatlıq” taksilər artıq yoxdur. Rəsmi qurum sərnişinlərə müntəzəm marşrutlardan istifadəni məsləhət görsə də, bir çoxları bu sahədə vəziyyətin onları qane etmədiyini söyləyirlər.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az




Bakının Tbilisi prospektində, üzü “20 Yanvar” metrostansiyası istiqamətində “manatlıq” taksilərin fəaliyyəti dayandırılıb. Buna səbəb isə həmin ərazidə avtobus zolağının salınmasıdır. Bununla da, nəqliyyatın hərəkətinə mane olan avtomobillər ərazidən kənarlaşdırılıb. Nəqliyyatın hərəkətini tənzimləmək məqsədilə atılan bu addım həm taksi sürücüləri, həm də sərnişinlər arasında ciddi narazılığa səbəb olub. Hətta, “manatlıq” taksi olmayanda insanların Bakıdan Sumqayıta gedərkən mənzil başına çata bilmədiklərini iddia edənlər də var.

### “TAKSİ BİZƏ BU FÜRSƏTİ VERMİR”

Məsələn, Saray ərazisində yaşayan sərnişin deyir ki, avtovağzaldakı avtobuslar ancaq Sumqayıt avtovağzalına aparır, Sarayda qalanlar, yarı yolda düşmək istəyənlər əziyyət çəkirlər: “Yəni ünvana çatmaq üçün bir neçə avtobus dəyişməliyik, o da əgər minmək imkanımız olarsa. Həm pulumuz gedir, həm də vaxtımız. Avtobus zolağı çəkilərkən taksilər üçün də dayanacaq düşünülməli idi”.

Narazılıqla yanaşı, yeni avtobus zolağının çəkilməsinə sevinənlər də az deyil: “20 Yanvar” metrostansiyası ərazisindəki vəziyyət çox xaotik idi. Düşünürəm ki, avtovağzaldan avtobusa minib gəlmək daha sərfəlidir. Çünki avtobus zolağı çəkildiyi üçün tıxaca düşmürük və ünvana daha tez çatırıq. Taksi bizə bu fürsəti vermir”.

Maraqlıdır, “manatlıq” taksilərin fəaliyyətinin dayandırılmasından sonra məlum istiqamətdə sərnişindaşıma üçün hansı alternativ variantlar nəzərdə tutulub?

### QEYRİ-MÜNTƏZƏM AVTOBUSLAR CİDDİ TIXACLARA SƏBƏB OLURDU

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən (AYNA) qəzetimizə verilən məlumata görə, “20 Yanvar” metrostansiyası istiqamətində avtomobillərin pərakəndə və xaotik dayanması, eləcə də paytaxtdan, əsasən, Sumqayıt şəhəri istiqamətinə hərəkət edən qeyri-müntəzəm avtobuslar Tbilisi prospektinin bu hissəsində günün istənilən saatında ciddi tıxaclara səbəb olur və müntəzəm avtobus marşrutlarının fəaliyyətinə manea yaradırdı: “Tbilisi prospektinin “20 Yanvar” metrostansiyası istiqamətində xüsusi hərəkət zolağının təşkili ilə ictimai nəqliyyat istifadəçilərinin rahat, maneəsiz və əlavə vaxt itkisinə məruz qalmadan daşınmasına şərait yaranıb”.

## “119”, “135”, “525”...

Qurumdan bildirilib ki, “20 Yanvar” metro stansiyasının yaxınlığından və “Şamaxinka” adlanan ərazidən Xırdalan şəhəri və Masazır qəsəbəsinə müntəzəm avtobus marşrutları fəaliyyət göstərir: “Belə ki, bu ərazidən keçməklə Xırdalana 119 və 135, Masazıra isə 525 nömrəli avtobuslar hərəkət edir”.

Paytaxtdan Sumqayıt şəhərinə yola düşmək istəyən vətəndaşlar isə Bakı Beynəlxalq Avtovağzal Kompleksinin imkanlarından yararlana bilərlər: “Məhz buradan iki şəhərin avtovağzalını birləşdirən komfortlu ekspress avtobuslar 11 dəqiqəlik hərəkət intervalı ilə sərnişinlərə xidmət göstərir. Bakı-Sumqayıt şossesində yaradılan xüsusi hərəkət zolağı isə sərnişinlərin rahat və sürətli daşınmasını təmin edir. Təhlillərə əsasən, zolaqla hərəkət edən avtobusların son dayanacağa çatma müddəti 25-30 dəqiqə təşkil edir.

Vətəndaşlar Sumqayıta daha tez çatmaq üçün bir dayanacaq irəli getməklə müasir və komfortlu “Neoplan”larla yola düşə bilərlər”.

### BU AVTOBUSLARLA BAKININ İSTƏNİLƏN NÖQTƏSİNƏ DƏ GEDƏ BİLƏRLƏR

AYNA-dan bildirilib ki, ekspress avtobuslarla yanaşı, Bakı-Sumqayıt istiqamətində gündəlik olaraq müntəzəm marşrut xətləri üzrə 21 avtobus da sərnişinlərə xidmət göstərir: “Sumqayıt şəhərinin müxtəlif ərazilərindən yola düşən avtobusların son dayanacağı da Bakı Beynəlxalq Avtovağzal Kompleksinin



qarşısındakı “Avtovağzal” metrostansiyasıdır. Sərnişinlər avtovağzal ərazisindəki Nəqliyyat Mübadilə Mərkəzindən avtobuslarla Bakının istənilən nöqtəsinə də gedə bilərlər”.

Sakinlər “20 Yanvar” dairəsindən avtovağzala getmək üçün də əlavə avtobusdan istifadə etməli olduqlarını, üstəlik, istifadə etsələr belə, günün pik saatlarında avtobusa minməyin mümkünsüz olduğunu deyirlər. Problemdən çıxış yoluna gəldikdə isə, nəqliyyat eksperti Eldəniz Cəfər deyir ki, sözügedən dairə yaxınlığında yaranan sıxlığın səbəblərindən biri sərnişindaşıma ilə məşğul olan məsuliyyətsiz sürücülər idi: “İctimai nəqliyyatın avtobus seqmenti orada dəqiqələrlə gözləməli olur, tıxaca düşürdü. Bunun əsas səbəblərindən biri də orada qeyri-leqal sərnişindaşıma ilə məşğul olan bəzi məsuliyyətsiz sürücülərdir. Avtomobili yolun ikinci, üçüncü zolağında saxlayır, yolu kəsir, digər yol hərəkəti iştirakçılarının hərəkətinə mane olurdular”.

## MANATLIQ TAKSİLƏR FƏALİYYƏTLƏRİNİ LEQALLAŞDIRMALIDIRLAR


Eldəniz Cəfər

Mütəxəssis deyir ki, “manatlıq” taksi sürücüləri fəaliyyətlərini leqallaşdırmalıdırlar: “Həmin şəxslər yaxşı olardı ki, sərnişinləri parklanma yerlərindən götürüb və parklanma yerlərində də endirsinlər. O zaman sözügedən ərazidə hər gün rastlaşdığımız xaos olmayacaq. Bu, çox bəsit və sadə qaydadır”.

Məlumdur ki, hazırda Bakı şəhərində taksi dayanacaqlarının sayı o qədər də çox deyil. Həmsöhbətimiz deyir ki, bunun da müxtəlif obyektiv və subyektiv səbəbləri var: “Vaxtilə şəhər tikintisi zamanı nizamsız tikintilər olub, piyada səkiləri, avtomobil yolları, parklanma yerləri müxtəlif insanlar tərəfindən zəbt edilib. Orada yaşayış və qeyri-yaşayış obyektləri tikilib. Ona görə də, demək olar ki, həmin ərazidə taksi dayanacağı parkı yaratmaq mümkün deyil”.

Bəzi insanlar problemin kökünü yeni avtobus zolaqlarının çəkilməsində görür. E.Cəfər vurğulayır ki, avtobus zolağı mütləq olmalıdır: “Bu, yol hərəkəti təhlükəsizliyinə dair dövlət proqramında təsbit olunub”.

İNCƏ BAXIŞ
Təranə Məhərrəmova
taranamaharramova@kaspi.az



# Səfərdə pulsuz və sənədsiz qalsanız...

Xarici ölkələrdən birindəsənsə və pul kisəsi olan çantan oğurlanıbsa... Bunu təsəvvür etmək belə çətindir. Təəssüf ki, ən təcrübəli turistlər də bu kimi sarsıntılardan sığortalanmayıblar...

Son vaxtlar, xüsusən İtaliyaya, İspaniyaya səyahət edən turistlər oğurluq hallarının baş alıb getdiyindən dad edirlər. Bu mövzudakı statuslara yazılan rəylərdə hotellərdə də oğurluğun baş verdiyi, seyflərin belə etibarsız olduğu deyilir. Belədə “malını yaxşı saxla, qonşunu oğru tutma” məsəli də uyğunluğunu itirir...

Bu günlərdə turizm qruplarının birində “İtaliyada çiyin çantam oğurlandı, içində pasportum və əlavə əşyalar vardı, tapılmasa pasportsuz necə edəcəm?”, - deyə gənc oğlanın həyəcanlı sorğusu yadıma səfərlərimdən birində başıma gələn olayı xatırlatdı...

### ÇANTANI YERƏ QOYMAĞIMLA YOXA ÇIXMAĞI BİR OLDU

Florensiyada qaldığım hotel dəmiryolu vağzalının lap yanında idi. Bir axşamüstü hotelə qayıdarkən yan-yana düzülən ayaqqabı dükanlarına baş çəkdim. Dükanların birində tuflini geyinərkən əlimdəki çantanı yerə qoymağımla yoxa çıxmağı bir oldu. Dükanda işləyənlər də görməmişdi. Ölkədə oğurluq çox olduğundan başlarını ağrıtmamaq üçün əksər dükanlarda kameradan da istifadə olunmur. Hər halda, özlərinə sərf etməyən məqamlar üçün belə əsaslandırırlar. Çantamda isə pasportum, telefonum, bank kartlarımın olduğu pulqabım vardı. Mən faktiki olaraq yad ölkədə pulsuz və sənədsiz qaldım. Ətrafda tanıdığım kimsə də yox... Kiminləsə əlaqə saxlamaq, başına gələni anlatmaq, məsləhət və ya kömək üçün telefon da həmçinin...

### “TAPILMASINA ÜMİD VARMI?”

Dükanda məsləhət gördülər ki, yaxınlıqdakı Carabinieriyə (polisə) müraciət edim. Polisdə mənim kimi olay yaşayanlar az deyildi. Növbəm çatanda ərizə yazdım, çantanın içərisində olan əşyaları, qaldığım hoteli və şəxsi məlumatları qeyd etdim. “Tapılmasına ümid varmı?” sualıma gənc polis “ola bilər...” cavabını verdi. Şok vəziyyətdə hotelə qayıtdım.

Gecəni necə yatdığımı xatırlamıram. Səhər tezdən artıq Romadakı səfirliyimizlə əlaqə üçün internet və telefon axtarırdım. Digər tərəfdən, bir gün sonra hoteli tərk etməli və Romaya qayıtmalı idim. Amma qatar biletimin elektron variantı da itən telefonumun yaddaşında qalmışdı...

### “HOTELDƏN TƏRPƏNMƏYİN, ÇANTANIZI TAPAN ADAM GƏTİRƏCƏK”

Səhər hotelin əməkdaşından xahiş etdim ki, mənə səfirliyə məktub yazmağa şərait yaratsın. O, yenidən polis bölməsinə zəng edib çantamın taleyi ilə maraqlandı. “Tapılıb” xəbəri mənim üçün çantanı itirdiyim an yaşadığım şoka bərabər oldu. “Hoteldən tərpənməyin, çantanızı tapan adam gətirəcək”, - deyə polis bölməsindən dedilər. Bir qədər sonra cavan bir oğlan əlində çantamla gəldi, içərisində də itən əşyalarımın hamısı. Telefonum, pasportum, pulqabım... Təkcə blokda olmayan iki bank kartımda olan pul xərclənmişdi. “Qardaşım axşam bu çantanı yol kənarında görüb. Pasportunuzda sizin müsəlman olduğunuzu və Azərbaycandan gəldiyinizi görüb “bu sənədləri mütləq çatdırmalıyam”, - deyə polisə zəng etdim. Mən özüm də müsəlmanam, Banqladeşdənəm”, - deyə gənc bildirdi. Telefon nömrəsini də verib “burada olduğunuz müddətdə nəsə lazım olsa əlaqə saxlayın”, - deyib getdi.

### BAŞIMA GƏLƏNDƏN DƏRS GÖTÜRMƏYİ UNUTMAMIŞAM

Polisə məlumat verərkən “adətən çantalar, sənədlər tapılır, keçidlərə, zibil qablarının yanına atırlar. Pulu isə gözləməyə dəyməz. Ancaq heç kəsin əşyasını aparıb özünə təqdim etmirlər”, - deyə gənc polis heyrətini gizlətmədi.

Bilmirəm, bəlkə də bəxtim gətirmişdi. Səhəri gün heç nə olmamış kimi ətraf şəhərlərə səyahətə çıxdım. Çox xoşbəxt idim.

O hadisədən sonra bir neçə dəfə də səyahət etmişəm. Amma başıma gələndən özümə dərs götürməyi də unutmamışam: hər səfərimdə bütün sənədlərimin bir neçə surətini çıxarıb, bəzilərini hoteldə, bəzilərini üzərimdə saxlayıram. Bank kartlarımın və nağd pulumun hamısını üzərimdə gəzdirmirəm. Sənədlərimin olduğu kiçik çarpaz çantamı isə özümdən heç ayırmıram...




# “KASPİ”NİN ƏMƏKDAŞI MÜNSİFLƏR HEYƏTİNDƏ

Global Media Group-a daxil olan qəzetin əməkdaşı Təranə Məhərrəmova beynəlxalq festivalın münsiflər heyətinin üzvü seçilib.

Vyanada Beynəlxalq Turizm Filmləri Festivalı (CİFFT) işə başlayıb. Təşkilat 36-cı buraxılışında ilk dəfə olaraq dünya səyahətçi jurnalistlərinin səyahət videolarını qiymətləndirmək üçün müsabiqə elan edib.

Müsabiqənin qalibi yeni “Turizm Mətbuat Mükafatı”na layiq görüləcək. Xüsusi mükafat noyabrın 26-dan 28-dək İspaniyanın Valensiya şəhərində keçiriləcək “Dünya Turizm Filmləri Festivalı (World Tourism Film Awards) mərasimində təqdim olunacaq. Final mərasimində mükafatların təqdimatı ilə yanaşı, dünyanın ən yaxşı turizm filmlərinin nümayişi də keçiriləcək.

Müsabiqəyə 23 ölkədən 66 səyahət videosu təqdim edilib. Səyahət videolarının qiymətləndirmə prosesinə sentyabrın 10-da start verilib. Proses sentyabr-oktyabr aylarını əhatə edən turlar çərçivəsində onlayn olaraq həyata keçiriləcək.

Mükafatın qalibi Beynəlxalq Səyahət Jurnalistlərindən ibarət münsiflər heyəti tərəfindən müəyyənləşdiriləcək.

Festival komitəsinin direktoru Alexander V. Kammel bildirib ki, mükafat turizm və media arasındakı güclü qarşılıqlı əlaqələri vurğulayır: “Bu təşəbbüs CIFFT tarixində əhəmiyyətli bir mərhələni qeyd edir. Biz jurnalist ictimaiyyəti ilə audiovizual cəmiyyət arasında unikal uyğunlaşma yaradaraq turizmi təşviq edirik”.

### 80 NƏFƏRLİK HEYƏT SEÇƏCƏK

Audiovizual məhsulların qiymətləndirilməsində dünyanın aparıcı media orqanlarından 80-dən çox səyahət jurnalistindən ibarət münsiflər heyəti iştirak edəcək.

Global Media Group-a daxil olan “Kaspi” qəzetinin əməkdaşı, əməkdar jurnalist Təranə Məhərrəmova da Azərbaycandan seçilən münsiflər heyətinin üç üzvü sırasında yer alıb.

Xatırladaq ki, festival Avropa Turizm Komissiyası (ETC), Mərkəzi Amerika Turizm Agentliyi (CATA) tərəfindən dəstəklənir. Bakı Beynəlxalq Turizm Filmləri Festivalı Beynəlxalq Turizm Filmləri Festivalları Komitəsinin (CIFFT) üzvüdür.

# “NAR”IN DƏSTƏYİ İLƏ “BREYN RİNQ”

Ölkənin ən sərfəli mobil operatoru mövqeyini qorumaqla yanaşı, sosial layihələrə də xüsusi önəmlə yanaşan “Nar”ın əsas dəstəyi ilə Azərbaycanın ən güclü beyinləri növbəti dəfə “Breyn Rinq” intellektual yarışmasında biliklərini sınamağa başladılar.




24-cü mövsümdə 12 şəhər və 7 universiteti təmsil edən 21 komanda “BİLİK KUBOKU” uğrunda mübarizəyə başlayaraq qarşıdakı 4 ay boyunca bilik və zəka bacarıqlarını nümayiş etdirəcək. İştirakçılar hər bazar günü saat 19:15-də İctimai Televiziyada yayımlanacaq yarışmada öz şəhər və universitetlərini qürurla təmsil edəcəklər.

“Nar” üçün elm və təhsilə dəstək vermək strateji Korporativ Sosial Məsuliyyət (KSM) istiqamətinin vacib hissəsidir. Operator gənclərin bilik və intellektual potensialını inkişaf etdirmələrinə imkan verən bu cür layihələrə dəstək olmaqla, həm fərdi inkişafı, həm də Azərbaycanın bilik və elm sahəsində irəliləməsini təşviq edir. “Nar”ın həyata keçirdiyi bütün layihələr haqqında ətraflı məlumatı nar.az/layihələr səhifəsindən əldə etmək olar.

“Nar” hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. “Nar” son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

KART SAHİBİ OLMAQ İSTƏYİRSƏNSƏ, PUL VƏSAİTİNİ XƏRCLƏMƏLİSƏN

# KREDİT KARTLARI İLƏ BAĞLI YENİ QAYDALAR GƏLİR




**Bir çoxlarımız kredit kartlarındakı vəsaitləri ehtiyat kimi saxlamağı üstün tuturuq. Artıq bu məsələ ilə bağlı yeni tələblər qoyulur. Bankların bu kartlarla bağlı qaydaları sərtləşdirəcəkləri gözlənilir.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

2024-cü ilin II rübündə kredit kartları üzrə kredit standartlarında sərtləşmə müşahidə edilib. Bu barədə Azərbaycan Mərkəzi Bankının kreditləşmə fəaliyyətinə dair sorğunun nəticələrində bildirilib. Sorğuya əsasən, banklar 2024-cü ilin III rübündə əməkhaqqı kreditləri üzrə standartlarda dəyişiklik olmayacağını və kredit kartları üzrə standartlarda sərtləşmələrin yer alacağını proqnozlaşdırırlar. İnsanların kredit kartlarına tələbinin artdığı bir dövrdə bu addımın atılması maraq doğurur. Kredit kartları üzrə kredit standartlarında sərtləşmə qərarını doğuran səbəblər hansılardır? Bu addım banklara nə qazandıracaq?

### “BANK VERDİYİ VƏSAİTDƏN GƏLİR ƏLDƏ ETMƏLİDİR”

Bank məsələləri üzrə ekspert Emin Kərimovun sözlərinə görə, bir çox hallarda vətəndaşlar kartı alır, lakin istifadə etmirlər. Bu, banklara sərf etmir: “Kredit kartlarındakı məbləği müəyyən zamana qədər istifadə etmək olur. Məsələn, beş illik istifadə müddəti olan kartdakı vəsaitdən üç il istifadə hüququ verilir, son iki ildə isə ödəmək tələbi qoyulur. Müştəri kartı götürür və ehtiyat olaraq özündə saxlayır. İstifadə etmədiyi üçün də faiz hesablanmır. Bu, bankın gəlirlərinin azalmasına səbəb olur. Məsələn, bir vətəndaş iki min manat əməkhaqqı alır. Banklara müraciət edir, gəlirlərini, xərcini çıxaraq vətəndaşa hərəsində beş min manat olan üç kart verirlər. O isə həmin kartlardakı məbləğə ehtiyacı olmadığı üçün toxunmur, bu zaman kartlardakı 15 min manat məbləğ heç bir gəlir gətirmir”.

Ekspertin fikrincə, bu səbəblər bankların maliyyə sıxıntısı yaşamasına qədər gətirib çıxara bilir: “Yəni, kredit kartlarındakı vəsaitdən ya istifadə olunmur, ya da vətəndaş faizi müddətin sonunda ödəyir. Banklar öz vəsaitlərini plastik kart vasitəsilə müştəriyə verir, lakin proqnozlaşdırılan gəliri əldə edə bilmədiyinə görə, gəlirlilik əmsalında müəyyən dərəcədə azalmalar yaranır. Bank verdiyi vəsaitdən gəlir əldə etməlidir ki, vəsaiti digər müştərilərə yönəldərək pul dövriyyəsini genişləndirsin. O səbəbdən vəsaitlərin plastik kartlarda yatması banklar üçün məqsədəuyğun deyil. Kredit kartları üzrə sərtləşmələr gözlənilən idi”.

E.Kərimov bildirdi ki, sırf belə hallara görə, banklar daha çox nağd kreditlərin verilməsinə üstünlük verirlər: “Çünki nağd kreditlər verilən gündən faiz hesablanır. Artıq növbəti aydan vətəndaşlardan ödəniş tələb olunur”.



Asif İbrahimli

## ŞƏRTLƏR VƏTƏNDAŞLARIN XOŞUNA GƏLMƏSƏ...

Sərtləşmələrin vətəndaşlara necə təsir edəcəyi ilə bağlı suala gəldikdə, müsahibimiz qeyd etdi ki, plastik kartlara tələb bu qədər çox ikən, heç bir azalma gözlənilmir: “Yeni qaydalar üzrə sərtləşmələrin vətəndaşlar üçün hər hansı bir çətinlik yaradacağını düşünmürəm. Çünki əgər bankların şərtləri vətəndaşların xoşuna gəlməsə, bu zaman nağd kredit də götürə bilərlər. Həmçinin lombard kreditlərinə müraciət etmələri də mümkündür. O səbəbdən ciddi bir təsiri olmayacaq. Sadəcə, bu, bank sektorunda gələcəkdə yarana biləcək mənfi tendensiyaların qarşısının alınması üçün qabaqlayıcı tədbirlər planıdır. Müəyyən bir dövr keçdikdən sonra öz bəhrəsini verəcək, daha sonra tətbiq olunan qaydalardan imtina da mümkündür. Plastik kartlar yarandığı gündən vətəndaşların rəğbətini qazanıb, şərtləri də insanlar tərəfindən bəyənilir. İstənilən halda, onların faydalı bir maliyyə aləti olduğu qənaətindəyəm”.

## KREDİT KARTLARININ ƏLDƏ EDİLMƏSİ ŞƏRTLƏRİ ÇOX SADƏDİR




İqtisadçı Asif İbrahimli isə dedi ki, kredit kartlarının alınması üsulları çox asandır. Belə olduğu halda da problemlər ortaya çıxır: “Ümumiyyətlə, kredit kartları və digər kredit məhsulları ilə bağlı banklarda borcların geri ödənilməməsi ilə bağlı ciddi problemlər yaşanır. Kredit kartlarının əldə edilməsi şərtləri çox sadə olduğuna görə, həmin bankda əməkhaqqı kartı olan vətəndaşa hər hansı kredit kartları da təklif olunur. Vətəndaş da rahatlıqla əldə edib istifadə edir. Amma bir çox hallarda götürülən məbləği ödəməmə halları baş verir. Düşünürəm ki, bununla bağlı qərar veriləcək. Ümumiyyətlə, bank kartlarının alınması ilə bağlı həm təhlükəsizlik meyarlarının artırılması, həm də onların əldə edilməsi istiqamətində müəyyən beynəlxalq standartların tələblərinə uyğun tədbirlər həyata keçirilməlidir”.

İqtisadçı bildirdi ki, kredit kartları ilə bağlı bir çox narazılıq halları baş verirdi ki, artıq bunların da qarşısı alınmış olacaq: “Burada bankın əldə etdiyi odur ki, artıq borcların vaxtı-vaxtında geri qaytarılması təmin olunacaq”.

### QAYDALAR DAHA DA QƏLİZLƏŞƏ BİLƏR

A.İbrahimlinin fikrincə, krediti ödəmə qabiliyyəti olan insanların narahat olacağı vəziyyət mövcud deyil: “Rəsmi iş yeri olan, kredit tarixçəsi normal vətəndaşlarla bağlı hər hansı bir uzaqlaşdırma olmayacaq. Sadəcə, müəyyən proseduralarda dəyişikliklər ediləcək. Qaydalar daha da qəlizləşə bilər”.

# HƏR GÜN 100-DƏN ARTIQ ziyarətçi qəbul edən muzey



Dantenin Ev muzeyi dahi şairin həyat və yaradıcılığı ilə tanış olmaq istəyənlər üçün müxtəlif sənədləri nümayiş etdirir. Ekspozisiya elə tərtib olunub ki, həm də onun mövcud olduğu və ilham aldığı tarixi-mədəni mühiti işıqlandırır.

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Dantenin Ev muzeyi (Casa di Dante) Florensiyanın mərkəzində, şəhərin köhnə orta əsr məhəlləsində yerləşir. Bu məkan orta əsr ədəbiyyatı həvəskarları və Aligyeri yaradıcılığının pərəstişkarları arasında çox məşhurdur. Muzeyi Dantenin büstü ilə bəzədilmiş fasadı ilə tanımaq olar. "İlahi komediya"nın yaradıcısına və italyan dilinin atasına həsr olunmuş muzeydə 2005-ci ildə geniş miqyaslı bərpa işləri aparılıb. İş üçün vəsait xeyriyyə fondu tərəfindən ayrılıb, həmçinin yerli sakinlərdən ianələr toplanıb. Yanğın nəticəsində muzeydə olan ən qədim mebellərin və qiymətli sənədlərin əksəriyyəti itib. Təəssüf ki, Dantenin özünə aid heç bir əşya günümüzə qədər gəlib çatmayıb.

## 600 İLLİK YUBİLEYƏ HƏDİYYƏ

Mənbələrə görə, əslində bu binanın böyük intibah şairi ilə birbaşa əlaqəsi də yoxdur. Muzey 1910-cu ildə Dantenin evinin bünövrəsi üzərində tikilib. Ona görə də muzeyə gələnlər orijinal mebellərə heyran olmaq, Aligyerinin vaxtilə bu balkonda necə oturduğunu təsəvvür etmək haqda düşünmürlər. Buna baxmayaraq, hətta əmin skeptiklər də ev-muzeyi mütləq ziyarət edirlər. Maraqlıdır ki, Dante bu evin qonşuluğunda xəyallarının ilhamı ilə - Beatrice Portinare ilə ilk dəfə tanış olub.

Muzeyə gələnlər yaxınlıqdakı Santa Margherita kilsəsinin divarına vurulan Dante lövhəsinə məktublar yazır, açarlar bağlayırlar. İnsanlar görkəmli şairin yaradıcılığının ilahi gücündən imdad diləyirlər.

## ƏFSANƏLƏRDƏN BAŞQA HEÇ NƏ QALMAYIB

1321-ci ildə - Dantenin ölümündən sonra qardaşı Françesko evin bir hissəsini Mardolli ailəsinə satıb və onlar da öz zövqlərinə uyğun olaraq binanı yenidən tikiblər. Sonradan bu evin yeni sahibləri olub və onların hər biri tikilinin görünüşünə və daxili bəzəyinə özünəməxsus bir element qatıb. Nəticədə Dantenin ilkin evindən əfsanələrdən başqa heç nə qalmayıb. Onun yerində bir neçə dağınıq bina yaranıb.

19-cu əsrdə paytaxt Florensiyaya köçürülüb, bu da şairin 600 illik yubileyinə təsadüf edib. Şairin qeyri-adi şəxsiyyətinə maraq yenidən canlanıb və xüsusi komissiya Dantenin hansı evdə yaşadığını sənədləşdirib. Bu hadisələrdən sonra paytaxtın yenidən Romaya köçürülməsi əvvəllər tərtib edilmiş mədəni və tarixi layihənin ləğvinə səbəb olmur. Layihə daha da inkişaf etdirilir və 1911-ci ildə Florensiya meriyası tarixi binanı satın alır və orijinal ev tikilir. Ev muzeyin yuxarı terrasından orta əsr Florensiyasının gözəl mənzərəsindən həzz almaq olur.

## DANTE TƏKCƏ ŞAİR DEYİLDİ

Dante Aligyeri Ev Muzeyinin sərgisi binanın üç mərtəbəsində yerləşir. Ekspozisiya elə tərtib olunub ki, təkcə şairin həyat və yaradıcılığını deyil, həm də onun mövcud olduğu və ilham aldığı tarixi-mədəni mühiti işıqlandırır.

Muzey Dantenin həyat və yaradıcılığı ilə tanış olmaq istəyənlər üçün əvəzolunmaz rəsmlər və Bottiçellinin "İlahi komediya"sının nüsxələri, Dantenin möhtəşəm əsərlərinin müxtəlif nəşrləri, həmçinin fotoşəkillər və müxtəlif sənədləri nümayiş etdirir.

Muzeyin bələdçisi məlumat verir: "Dante təkcə şair deyildi, O, gənc yaşlarından Florensiyanın ictimai həyatında fəal iştirak etmiş, "ağ" qvelflər partiyasına qoşulmuşdu. "Qara" qvelflərin qələbəsindən sonra qiyabi olaraq yandırılmağa məhkum edilmişdi. Cəza olaraq 1301-ci ildə şair-siyasətçini heç vaxt geri dönə bilmədiyi məmləkətindən qovurlar. O, didərgin həyat sürür. Dante ömrünün son 6 ilini Ravennada yaşayıb".










## ŞAİRİN SÜRGÜN EDİLDİYİ VAXTDAN QALAN OTAQLAR

Binanın birinci mərtəbəsində - Dantenin mənsub olduğu Həkimlər İncəsənətinə və Əczaçılar Gildiyasına həsr olunmuş zalda xəstələr üçün məlhəm və iksirlərin hazırlanmasında istifadə olunan bitkilərin, çiçəklərin, distillələrin və mineralların sərgisi var.

İkinci mərtəbəyə qalxanda, şairin sürgün edildiyi vaxtdan qalan otaqlar açılır, böyük florensiyalı tarixçilərin kitablarının sərgisi, orijinal nəşrlər və 1337-ci ildə çap olunmuş "Codex Trivulzio"ya daxil edilmiş "İlahi komediya"nın surəti nümayiş olunur. Bu otaqlar Dantenin sürgünündən bəhs edir. Maraqlı eksponatlar arasında Aligyeri haqqında hökmü tapa biləcəyiniz məhkəmə qərarlarının ictimai kitabının bir nüsxəsi də var. Eksponatlar arasında Dantenin şəxsən iştirak etdiyi Kampaldino döyüşünün maketi də yer alıb.

Qonşu otaqda ziyarətçilər qədim mebellərlə təchiz olunmuş yataq otağını görə bilərlər. Məhz elə bir otaqda Dantenin özü yaşaya, dincələ və yeni əsərləri üçün ideyalar yarada bilib. Muzeydə Dante və onun sevimli Beatriçası arasındakı münasibətlərin inkişafına həsr olunan sərgi də nümayiş olunur.

Üçüncü mərtəbədə Qustav Dörenin illüstrasiyaları ilə "İlahi komediya" haqqında film nümayiş etdirilir.

Muzeyin yuxarı mərtəbəsində ziyarətçilərə Dantenin əsərlərinin nüsxələri, eləcə də İntibah zadəganlarının geyim nümunələri təqdim olunur.

Muzey əməkdaşı bildirdi ki, muzey Dantenin həyat və yaradıcılığı haqqında bilikləri geniş ictimaiyyətə çatdırmaq üçün maarifləndirməyə böyük diqqət yetirir: "Uşaqlar və yeniyetmələrə yönəlmiş bir sıra fəaliyyətlər təqdim edir, gəncləri yaradıcı və cəlbedici şəkildə Dantenin obrazı ilə yaxınlaşdıran maarifləndirici seminarlar proqramı həyata keçirir. "İlahi viktorina", "Dante və orta əsrlər", "İlahi komediya tapmacası", "İlahi komediyada astrologiya və numerologiya" və s. proqramlar bu qəbildəndir".

Muzey bazar ertəsindən başqa hər gün işləyir. Muzeyə giriş biletinin qiyməti 8 avrodur. Hər gün muzeyə 1000-dən artıq insan gəlir. Yay aylarında ziyarətçilərin sayı daha çox olur.



# YENİ MÖVSÜMƏ YENİ SERİALLARLA

Artıq telekanallarımızı seriallarsız təsəvvür etmək qeyri-mümkündür. Yeni mövsümdə də telekanallarımızın seriallarla bağlı yenilikləri var.



XANIM AYDIN

Telekanallar artıq yeni mövsümə start verirlər. Bu isə o deməkdir ki, yeni serial mövsümü də başlayır. Serial həvəskarları da yay aylarında sevdikləri qəhrəmanlar üçün darıxır və yeni mövsümü səbirsizliklə gözləyirlər. Yeni mövsümdə telekanalların seriallarla bağlı planlarını öyrənməyə çalışdıq.

### "ƏLVİDA, XOŞBƏXTLİK"

"Azad Azərbaycan" televiziya kanalının efirində tezliklə yeni bir serial tamaşaçıların görüşünə gələcək. Bu, "Oscar film production"ın istehsal etdiyi "Əlvida, xoşbəxtlik" adlı serialdır.

Serialı ərsəyə gətirənlərdən biri - quruluşçu rejissor Vüsal Məmmədov deyir ki, "Əlvida, xoşbəxtlik" serialı bir qadının yaşadığı xəyanətdən bəhs edir: "Serialın baş qəhrəmanı Nigar ərinin xəyanəti ilə üzləşir. Məlum olur ki, ona xəyanət edən təkcə əri yox, bütün əziz, yaxın bildiyi adamlardır. Bir anın içində bütün doğmalarından zərbə alan qadının iztirabı, qisası, həyat uğrunda mübarizəsi, eyni zamanda ana kimi övladına görə verdiyi qurbanlar serialın ana xəttini təşkil edir".

Ülviyyə Rza, Vüsal Murtuzəliyev, Zemfira Əbdülsəmədova, Firdovsi Atakişiyev, Zülfiyyə Məmmədova, Xumar Səlimova, Elvin Ağayev, Elvira Atakişiyeva və digərlərinin rol aldığı "Əlvida, xoşbəxtlik" serialının baş prodüseri Yaşar Əhmədov, redaktoru İlqar Fəhmi, quruluşçu rejissoru Vüsal Məmmədov, quruluşçu operatoru Mehdi Yaqubdur.

### "VƏTƏNDAŞ A" İZLƏYİCİLƏRİN QARŞISINA ÇIXACAQ

İTV də bu mövsüm tamaşaçılarına yeni serial təqdim edəcək. Bu, ssenarisi Cəfər Cabbarlının "Almaz" pyesindən təsirlənərək qələmə alınan "Vətəndaş A" serialıdır.

Serialın quruluşçu rejissoru Elvin Rüstəmzadə deyir ki, "Vətəndaş A" serialı vətəndaş kimliyini, bu kimliyin cəmiyyətin timsalında təşəkkül prosesini, təhsilin vətəndaş kimliyinin formalaşmasındakı həlledici əhəmiyyətini vurğulayır: "Serialın əsas qəhrəmanı Almazdır. O, şəhərdən ucqar kənd məktəbinə təyinat alır. Bu idealist müəllimə köhnə adətlərlə, məktəbdəki qanunsuzluqlarla, özbaşınalıqlarla və ayrıca olaraq qadınların hüquqları uğrunda mübarizə aparır. Serialda bu günün problemləri əks olunur və cəmiyyətə güzgü tutur".

Ssenari müəllifi Asiman Ağa Rövşən olan serialda Günəş Mehdizadə, Qurban İsmayılov, Şamil Süleymanlı, Şövqi Hüseynov, Ötkəm İsgəndərov, Nəsibə Eldarova, Xalidə Əliməmmədova, Rauf Şahsuvarov, Oktay Mehdiyev, Zülfiyyə Qurbanova, Niyaz Qasımov, Əlibəy Məmmədli, Ramil Məmmədov və digərləri çəkiliblər.




## "SARA"NIN DAVAMI GƏLİR

ARB telekanalında da yeni mövsümdə "Sara-2" adlı yeni serial təqdim ediləcək. Bu serial tamaşaçılara ötən mövsümdən tanış olan "Sara" serialının davamıdır.

"Whiteroofpro" və "Oksimedia prudiction"nın birgə layihəsi olan serialın baş prodüserləri Ziya Ağa və Oksana Rəsulova, quruluşçu rejissoru Sain Qəhrəman, baş məsləhətçisi Abu Aleeha, ssenari müəllifləri Könül Məmmədova və Qızbəs Abdullayevadır.

Oksana Rəsulova deyir ki, tamaşaçıların birinci mövsümdən sevdiyi obrazlar ikinci mövsümdə də var: "Lakin onlarla yanaşı, yeni obrazların da tamaşaçıların ürəyini fəth edəcəyinə inanırıq". Baş prodüser qeyd edib ki, serialda bu mövsüm özü, Ziya Ağa, Vidadi Həsənov, Həmidə Ömərova, Mehriban Xanlarova, İlqar Cahangir, Rada Nəsibova və digər aktyorlar çəkiliblər. "Ümid edirik ki, "Sara-2" hər kəsin ürəyinə yol tapacaq", - deyə O.Rəsulova qeyd edib.

### "GÜNAHSIZ GÜNAHKAR"

Bir ailə faciəsindən bəhs edən serial da ARB televiziyasında efirə gedəcək. "Günahsız günahkar" adlı serialın quruluşçu rejissoru Kənan MM, ssenari müəllifi Elçin Muradovdur.

"Serial günahsız həbs edilən bir insanın - atanın taleyindən bəhs edir. Onu 18 il ailəsi də günahkar bilir, həbsdən çıxandan sonra qəbul etmir. Ata serial boyu günahsız olduğunu sübut etməyə çalışır", - deyə Kənan MM bildirib.

"Günahsız günahkar" serialında Kənan MM, Aqil M.Quliyev, Günel Həmidova, Arzum Kərimova və digər aktyorlar çəkilirlər.

## İZLƏYİCİLƏRİNƏ "XƏYANƏT" ETMƏYƏN SERİAL

Bu mövsüm Xəzər televiziyası da serial izləyicilərini unutmayıb. Ötən mövsümdən tamaşaçılara tanış olan "Xəyanət" serialının davamı gəlir. "Xəyanət 2" adlanacaq serialın layihə rəhbəri Cövdət Şükürov deyir ki, bu mövsüm ötən ilkindən də maraqlı olacaq: "Yeni mövsümdə aktyorlar Elxan Yunis, Kəmalə Müzəffər, Pərvanə Qurbanova, İlqar Cahangir, Niyaz İlyasoğlu, Sənan Kazımov, Gülçin Qasımova, Cavidan Novruz, Flora Hüseynli və başqaları bizimlə olacaq. Serialın quruluşçu rejissoru Pərviz Həsənov, ssenari müəllifi Gəray Həsənovdur".

Yerli istehsal olan seriallardan başqa, telekanallarımızda xarici, xüsusilə də, Türkiyə və Özbəkistan istehsalı olan serialların da Azərbaycan dilində dublyajla efirə getməsi gözlənilir. Yeni mövsümdə serial həvəskarlarına zövqlü xoş seyrlər, serialları ərsəyə gətirən bütün yaradıcı və texniki heyətlərə isə yüksək reytinq arzu edirik.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
14 SENTYABR ŞƏNBƏ 2024
www.kaspi.az

# BAKIDA "FORMULA 1" HƏYƏCANI

Bakı Şəhər Halqası ən çətin şəhər traslarından sayılır. Bu unikal tras həm sürətli düz yolları, həm də dar və kəskin döngələri ilə pilotların texniki bacarıqlarını sınayır. Xüsusilə, İçərişəhərin dar keçidləri sürücülər üçün böyük çağırışdır.




Yenidən bütün dünyanın diqqəti ölkəmizə yönəlib. Doğma Bakımız "Formula 1" üzrə Azərbaycan Qran-prisinə ev sahibliyi edir. Sayca səkkizinci dəfə təşkil olunan yarış bu dəfə də böyük maraq vəd edir. Artıq sentyabrın 14-də əsas mərhələnin sıralama tutu keçiriləcək, bazar günü isə qran-prinin qalibi müəyyənləşəcək.

### 2017-Cİ İLDƏN BAŞLAYAN MACƏRA

"Formula 1" Azərbaycan Qran-prisi ilk dəfə 2017-ci ildə Bakı Şəhər Halqasında təşkil olunub. Şəhər trasında baş tutan bu yarış mərkəzi küçələri əhatə edən, heyrətamiz mənzərələr və tarixi abidələr ətrafında olan döngələrlə sürət həvəskarlarının diqqətini çəkib.

İndiyə qədər baş tutmuş yeddi Qran-pri ərzində cəmi bir pilot iki dəfə podiuma qalxa bilib. Söhbət son qalib Serxio Peresdən gedir. O, 2021-ci ildə də bu uğura nail olmuşdu. Yarışın Bakıdakı ilk qalibi Daniel Rikkiardodur. Ondan başqa Lyuis Hemilton, Valtteri Bottas və Maks Ferstappen Bakıda rəqiblərini üstələməyi bacarıblar.

## YARIŞI MARAQLI EDƏN DETALLAR

Bakı Şəhər Halqası Monako ilə yanaşı ən çətin şəhər traslarından biri sayılır. Bu unikal tras həm sürətli düz yolları, həm də dar və kəskin döngələri ilə pilotların texniki bacarıqlarını və dözümlülüyünü sınayır. Xüsusilə, İçərişəhərin dar keçidləri sürücülər üçün böyük çağırışdır. Bakı trasının bir xüsusiyyəti də onun yüksək sürətli düzlüyə sahib olmasıdır. Bu, onu mövsümün ən sürətli şəhər traslarından birinə çevirir. Burada sürpriz nəticə ehtimallarının çox olması komandaları və pilotları daha diqqətli olmağa və bütün bacarıqlarını sərgiləməyə vadar edir və yarışa marağı artırır.

"Formula One Management"in Azərbaycan Qran-prisi ilə bağlı hesabatına əsasən, azarkeşlər arasında keçirilən sorğuda respondentlərin 74 faizi Azərbaycan Qran-prisinin davamlı keçirilməsinin tərəfdarı olduqlarını bildiriblər. Onların 73 faizi Bakı Şəhər Halqasının yarışın təşkili üçün möhtəşəm yer olduğunu, 74 faizi onun ötmə manevri üçün ideal imkan yaratdığını qeyd edib. Ümumilikdə respondentlərin 62 faizi Bakı yarışının "Formula 1" təqvimində ən sevimli yarışlardan biri olduğunu vurğulayıb.

### MALİYYƏ VƏ SİYASİ FAYDALARI

"Formula 1" Azərbaycan Qran-prisinin ölkəmiz üçün maliyyə faydaları olduqca irihəcmlidir. İlk növbədə yarışı izləməyə çoxsaylı turist gəlir. Üstəlik onların sayı hər il artmaqda davam edir. Hər kəsin diqqət mərkəzində olan tədbir sosial-iqtisadi yüksəlişimizə təkan verir. Hesabatlar göstərir ki, turistlər iqtisadiyyatın müxtəlif sahələrinə - hotellər, hava yolları, iaşə obyektləri, restoran, nəqliyyat, sosial və mədəni xidmətlər və digər sektorlara həddən artıq böyük fayda verirlər. Bahalı və elit idman növü hesab edilən "Formula 1"Azərbaycan Qran-prisi üçün ölkəmizə gələn turistlər hər il Bakının mərkəzi hotellərində yerləri demək olar ki, tam doldururlar. Azərbaycan Qran-prisi mövsümü yeni iş yerlərinin açılışı, valyuta daxil olmasının artması ilə nəticələnir.

Yarışın Azərbaycan üçün siyasi əhəmiyyəti də çox böyükdür. Azərbaycan Qran-prisi ölkəmizi dünyada tanıtmaq üçün ideal platformadır. Hər il "Formula 1" yarışını izləmək üçün dünyanın 100-dən artıq ölkəsindən Azərbaycana inasnlar axın edirlər. Bu o deməkdir ki, dünya ölkələrinin yarısından çoxu azarkeş kimi yarışlarda təmsil olunur, ölkəmizin mədəniyyəti, qonaqpərvərliyi ilə tanış olmaq imkanı əldə edirlər. Üstəlik, Azərbaycan artıq bir neçə ildir, dünya siyasi arenasında qalib ölkə kimi tanınır və bu il də qalib paytaxtda qalib statusda "Formula 1" Azərbaycan Qran-prisi təşkil olunur. Ümumiləşdirsək, dünyaca məşhur "Formula 1" yarışının Azərbaycanda keçirilməsi ölkəmizin hərtərəfli təbliğində müstəsna rol oynayır. Belə mühüm idman tədbirinin keçirilməsinin Azərbaycanın gücü, yüksək iqtisadi potensialı ilə birbaşa əlaqəsi var.

## AZARKEŞLƏRİ ULDUZ MUSİQİÇİLƏRİN CANLI PERFORMANSI GÖZLƏYİR



Azərbaycan Qran-Prisinin bu dəfə də mövsümün ən maraqlı yarışlarından biri olacağı şübhəsizdir. Niderlandlı Maks Ferstappen Bakıya turnir cədvəlinin lideri kimi gəlir. Böyük britaniyalı Lando Norris və fransalı Şarl Lekler ikinci və üçüncü yerlərdədir. Mühəndislərin yarışında isə "Red Bull", "McLaren Mercedes" və "Ferrari" arasında gərgin mübarizə davam edir. Bakı trasında hər şey dəyişə də bilər.

Azarkeşlər gərgin mübarizə ilə yanaşı, dünyanın ulduz musiqiçilərinin canlı performansını da izləyə biləcəklər. Builki yarış üçün bütün tribuna biletləri satılıb. Azarkeşlərin böyük marağı səbəbindən bu il Bakı yarışının səkkiz tribunasına iki yeni tribuna əlavə edilib. Yarış tribunalarının ümumi tutumu ötən ilə nisbətdə 35 faiz artırılıb.

Ümumilikdə, Bakı küçələri növbəti möhtəşəm və həyəcanverici rəqabətə hazırdır. Bəs bu dəfə əvvəlki qaliblərdən biri Bakı yarışında təkrar kürsüyə qalxa biləcək, yoxsa podiuma yeni ad yüksələcək? Sürət həvəskarları bu sualın cavabını tezliklə biləcəklər.